2 oktyabr 2024 №73 (2138)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Aşıq Ələsgərin abidəsi önündə tarixi mesaj

### "Gün gələcək, Göyçə mahalında da belə bir mərasim keçirəcəyik"



Sentyabrın 30-u Azərbaycanın mədəni həyatında xalqımızın çoxəsrlik ədəbiyyat tarixi, saz-söz sənəti ilə bağlı əlamətdar bir hadisə baş verib.

Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirak ediblər.

Paytaxtın Rəşid Behbudov və Bakıxanov küçələrinin kəsişməsindəki parkda qoyulan abidənin açılışının bu tarixə təsadüf etməsi aşıq sənətimizlə bağlı başqa bir əlamətdar faktı da yada salır. 15 il əvvəl, 30 sentyabr 2009-cu ildə Azərbaycan aşıq sənəti UNESCO-nun "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Representativ Siyahısı"na daxil edilib. Bu barədə qərar UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Əbu-Dabi şəhərində (BƏƏ) keçirilən 4-cü sessiyasında qəbul edilib.

Nə xoş təsadüf ki, Azərbaycan aşıq sənətinin azman sənətkarının abidəsinin açılışı da belə bir gündə gerçəkləşib.

Eyni zamanda, bu mərasim, sadəcə, mədəniyyət, ədəbiyyatla bağlı hadisə kimi yadda qalmadı. Dövlətimizin başçısı mərasimdə çıxışı zamanı Azərbaycanın tarixinə, son bir neçə ildə yaşadığımız şanlı Zəfər səhifələrinə nəzər salaraq gələcək üçün mühüm tarixi mesaj da verdi.

davamı səh. 2-də

## Kitabla böyük görüş yeddi gün sürəcək

### X Bakı Beynəlxalq Kitab Sərgisinin 18 ölkədən qonaqları var

Oktyabrın 2-də paytaxtımızda növbəti kitab bayramı başlanır. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə X Bakı Beynəlxalq Kitab Sərgisi (Baku International Book Fair – 2024) bir həftə – oktyabrın 8-dək Bakı Ekspo Mərkəzində davam edəcək.




2009-cu ildə əsası qoyulan beynəlxalq sərgi bu il həm daha geniş iştirakçı (ölkə) coğrafiyası, həm də çoxsaylı tədbirləri ilə kitabsevərlərin, kitabla bağlı olan hər kəsin – yazanın, nəşr edənin, satanın, oxuyanın, oxuduqlarını təhlil və tənqid edənlərin görüşünə gəlir.

Bu barədə sentyabrın 30-da X Bakı Beynəlxalq Kitab Sərgisi ilə bağlı mətbuat konfransında ətraflı məlumat verildi.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimova bildirdi ki, builki yubiley sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494-1556) anadan olmasının 530 illiyinə həsr edilib. Bakı Ekspo Mərkəzində keçiriləcək sərgi müəyyən edilmiş indekslər üzrə regionun ən böyük kitab festivalıdır.

Nazirliyin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli vurğuladı ki, sərgidə 4 qitəni təmsil edən 18 ölkədən 56 xarici təşkilat, 110 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edəcək.





Sərgidə Azərbaycanla yanaşı, Türkiyə, İtaliya, Çin, Rusiya, Koreya Respublikası, Macarıstan, Qazaxıstan, Qətər, Özbəkistan, Oman, Argentina, Mərakeş, Venesuela, Gürcüstan, Meksika, Kolumbiya, Çili və Monqolustandan tanınmış yazıçı və şairlər, elm adamları, gənc yazarlar iştirak edəcəklər.

davamı səh. 2-də

## "Xəzər" Biennalesi çərçivəsində Milli İncəsənət Muzeyində sərgi

Oktyabrın 1-də Azərbaycan Milli İncəsənət Muzeyində "Xəzər" Biennalesi platforması çərçivəsində sərgi açılıb.





Sərgi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı (ARİ) və Beynəlxalq Rəssamlar Klubunun təşkilatçılığı, Azərbaycan Milli İncəsənət Muzeyinin dəstəyi ilə keçirilir.

Açılış mərasimində mədəniyyət naziri Adil Kərimli, ölkəmizdən və xaricdən incəsənət xadimləri iştirak ediblər.

Qonaqları salamlayan Milli İncəsənət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova sərgi haqqında məlumat verib.



Qeyd edilib ki, sərgidə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan, Türkiyə, Bəhreyn və Macarıstandan rəssamların əsərləri nümayiş olunur. Sərgi region ölkələrinin mədəni müxtəlifliyini yeni bir baxış bucağından təqdim edir. O, milli kimliyin sənət vasitəsilə araşdırılması, xəyal edilən coğrafiyalar və tarixlə müasirlik arasındakı əlaqələrin alternativ şərhləri üzərində cəmləşir. Müasir incəsənət təkcə rəssamların fərdi təəssüratlarını əks etdirmir, həm də cəmiyyətin kollektiv şüurunun səsi kimi çıxış edərək "Biz kimik və hara gedirik?", "Tarix və mədəniyyətimizdəki keçid dövrü sona çatdımı?" kimi sualları ortaya qoyur.

Bildirilib ki, sərgidə müxtəlif forma, janr və mövzulara aid əsərlər təqdim olunur və hər bir rəssam özünəməxsus mərkəz nöqtəsini tapmağa çalışır. Sərgi realizmdən abstraksiyaya və sürrealizmə qədər geniş sənət axınlarını, həmçinin konseptual axtarışları nümayiş etdirir. Təqdim olunan əsərlərdə ənənəvi mədəniyyət elementləri mifoloji düşüncə, sufizm və simvolizmlə birləşərək müasir kontekstə gətirilir. Bir çox əsərdə Şərq dünyagörüşünə xas olan müşahidə və reallıqdan uzaqlaşma arzusu öz əksini tapır. Qərb və Şərq ideyalarının unikal sintezi müasir mədəni kimliyin formalaşmasına da mühüm töhfə verir.

ARİ-nin sədri Xalq rəssamı Fərhad Xəlilov və Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova çıxış edərək "Xəzər" Biennalesinin əhəmiyyətindən söz açıblar. Vurğulanıb ki, biennale incəsənət sahəsində nailiyyətləri nümayiş etdirmək və yaradıcılıq haqqında dialoq aparmaq üçün vacib platformadır.

Sonra qonaqlar sərgi ilə yaxından tanış olublar. Sərgi oktyabrın 15-dək davam edəcək.

## Bakı payızının kino havası

### "Baku Cinema Breeze" beş festival layihəsini bir araya gətirib

Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə oktyabrın 2-dən 8-dək ölkəmizdə ilk dəfə "Baku Cinema Breeze" (BCB) adlı böyük film festivalı keçiriləcək. "Baku Cinema Breeze" indiyədək ayrı-ayrılıqda təşkil olunan bir sıra tanınmış festivalları bir araya gətirərək dünya kinematoqrafiyasının şedevrlərini nümayiş etdirmək üçün vahid şəbəkə rolunu oynayacaq.




Oktyabrın 2-də Heydər Əliyev Mərkəzində festivalın açılış mərasimi olacaq. Tədbirdə müvafiq dövlət qurumlarının rəhbərləri, yaradıcı sektorun təmsilçiləri, beynəlxalq və yerli təşkilatların nümayəndələri, yüzlərlə yaradıcı şəxs, şirkətlər və ictimai birliklər iştirak edəcəklər.

Festival çərçivəsində Şərq ölkələrinin filmlərinin dünyaya tanıdılması üçün vacib bir platforma rolunu oynayacaq "Omarket" (Şərq ölkələrinin kino marketi) də təşkil olunacaq. "Omarket"in açılışı oktyabrın 3-də Heydər Əliyev Mərkəzində reallaşacaq.

Qeyd edək ki, festival müddətində Nizami Kino Mərkəzində, "CineMastercard Azərbaycan" kinoteatrında, "YARAT" Müasir İncəsənət Məkanında, "Kapellhouse Baku", "Landmark" və "YAY Gallery" məkanlarında paytaxt sakinləri və şəhərimizin qonaqları, ümumilikdə bütün kinosevərlər üçün film nümayişləri təşkil olunacaq.

Tədbirin məqsədi Azərbaycanı regionda kino sənayesinin mərkəzi kimi tanıtmaq, kino mədəniyyətini inkişaf etdirmək və yerli ekosistemi bir çətir altında birləşdirməkdir.

"Baku Cinema Breeze" festivalı ABŞ, Kanada, Hindistan, Niderland, Türkiyə, Almaniya, Portuqaliya, BƏƏ, Yunanıstan, Koreya, Gürcüstan, Estoniya və digər ölkələrdən kino sənayesi nümayəndələrini, həmçinin dünya kinematoqrafiyasının tanınmış simalarını Azərbaycanda bir məkana toplayacaq.

Qeyd edək ki, audiovizual sənayenin inkişafı məqsədi daşıyan festival Mədəniyyət Nazirliyinin "Yaradıcı Azərbaycan" layihəsi çərçivəsində həyata keçirilir.

İndi isə BCB çətiri altında təşkil olunacaq festivallar barədə.

davamı səh. 3-də

## "Baş rol nisgilim yoxdur"

"İkinci planda" rubrikasının simaları səhnədə və ekranda ön planda, baş rolda oynamasalar da, Azərbaycan teatr və kino sənətində özünəməxsus iz qoymuş sənət xadimləri olacaq. Müsahibə və portret yazılarda onları ön plana çıxaracaq, sənətə həsr etdikləri ömürlərinə nəzər salacağıq. İlk həmsöhbətimiz aktrisa Qəmər Məmmədovadır.



səh. 6

## Şəkidə bir rəssam vardı...

Bu il təsviri sənətin müxtəlif sahələrində maraqlı əsərlər ərsəyə gətirmiş Əməkdar rəssam, SSRİ Rəssamlar İttifaqının üzvü İsmət İsmayılovun anadan olmasının 100 illiyidir. O, qrafika, rəngkarlığın, xüsusilə, portret janrında, habelə tətbiqi sənətin parçaların bədii tərtibatı, ağac üzərində bədii oyma və naqqaşlıq istiqamətləri üzrə fəaliyyət göstərib.

səh. 7

"Nəsildən-nəslə teatr"



səh. 3



Gəncədə Səid Rüstəmovun musiqisi səslənib

səh. 4



Üzeyir Hacıbəyli festivalının son akkordu

səh. 5

# Aşıq Ələsgərin abidəsi önündə tarixi mesaj

## "Gün gələcək, Göyçə mahalında da belə bir mərasim keçirəcəyik"



*əvvəli səh. 1-də*

### Prezident İlham Əliyevin çıxışından

Bildiyiniz kimi, üç il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün mən iki sərəncam imzalamışam. Bir sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci sərəncam əsasında onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulurdu. Bu gün şəhərimizin bu gözəl yerində, deyə bilərəm ki, şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldılıb.

Aşıq Ələsgər Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır, uzun ömür yaşamışdır və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi, 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından – Qərbi Azərbaycandan birinci deportasiyası idi. Əfsuslar olsun, ondan sonra da bizim xalqımız iki deportasiyaya məruz qalmışdır. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi, baxmayaraq ki, iqlim, təbiət, gözəllik baxımından Kəlbəcər və Göyçə mahalı çox da fərqlənmir. Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç ildən sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir.

Hamımız yaxşı bilirik ki, 1970-ci illərdə Ulu öndərin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi qeyd edilmişdir, özü də Sovet İttifaqı miqyasında və bu yubiley münasibətilə Ağkilsə kəndində onun abidəsi ucaldılmışdır. Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıtmışdılar. Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, saraylarımız, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bütün dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi.

Bu gün bu tədbirdə iştirak edənlər Aşıq Ələsgərin yaradıcılığı ilə bağlı danışacaqlar. Sadəcə olaraq, onu demək istəyirəm ki, o, görkəmli şəxsiyyət, vətənpərvər insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük. Çünki yenə də deyirəm, 97 yaşında öz torpağından köçməyə məcbur olmuş insan 100 yaşında yenə də bütün təhlükələrə baxmayaraq, öz vətəninə qayıtmışdır.

Qeyd etdiyim kimi, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır – 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları – 1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir. İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri vətən həsrəti ilə yaşayırlar.

Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik.

### Hədəflərimiz həm qısamüddətlidir, həm də uzunmüddətli

Qarabağın işğalı dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır.

İşğal dövründə çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında mən bu barədə artıq bir neçə dəfə demişəm. Belə fikirlər eşidirdim ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaq lazımdır, gənc nəsli sülhə hazırlamaq lazımdır. Bu münaqişənin hərbi həlli yoxdur və digər fikirlər səsləndirilirdi. Bəzi hallarda bu fikirləri səsləndirənlər bəlkə də səmimi idilər, bəzi hallarda bizi yolumuzdan döndərmək, bizə bədbinlik duyğuları aşılamaq üçün edirdilər. Həyat və reallıq onu göstərir ki, hər şey bizim əlimizdədir. Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, – mən bunu bilirəm, – Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır.

Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Bu gün antiterror əməliyyatından keçən il ərzində biz bunu görürük.

Əslində, birinci həftələr, birinci aylar ərzində bizə qarşı nə qədər əsassız ittihamlar irəli sürülürdü, bizə sanksiyalar tətbiq edildi. Daha böyük sanksiyaların tətbiq edilməsi üçün böyük dövlətlər, – hər halda, özlərini belə sayanlar, – bizə qarşı müxtəlif beynəlxalq platformalarda açıq hücuma keçmişdilər, soyuq müharibə başlamışdır. Bu gün də bu, davam edir. Antiterror əməliyyatının ildönümü ərəfəsində biz yenə də nə qədər genişmiqyaslı şər, böhtan kampaniyası ilə üzləşdik. Bu, bizim iradəmizə təsir edə bilər? Heç vaxt! Çünki bizim işimiz haqq işidir və bizim işimizi Azərbaycan xalqı dəstəkləyir. Əslində, bu, Azərbaycan xalqının işidir. Qarabağı, Şərqi Zəngəzuru azad etmək, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının iradəsi hesabına, qəhrəman övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına mümkün olmuşdur.

### Bu abidə xalqımızı yenə bir amal uğrunda birləşməyə dəvət edir

Biz üç gün bundan əvvəl Anım Gününü qeyd etmişik. Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların qəhrəmanlığı heç vaxt unudulmayacaq. Amma bizim təqvimimizə bu kədərli 27 Sentyabr günü ilə bərabər, iki bayram günü də əlavə edildi – 8 Noyabr və 20 Sentyabr günləri. Bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.



Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik.

***

Mərasimdə daha sonra Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov, Aşıqlar Birliyinin sədri Əməkdar elm xadimi Məhərrəm Qasımlı, Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli çıxış ediblər.

**Yazıçılar Birliyinin sədri Anar:** "Son illərdə Bakıda dörd böyük bəstəkarımızın – Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Tofiq Quliyevin, üç böyük müğənnimizin – Bülbülün, Rəşid Behbudovun, Müslüm Maqomayevin heykəlləri ucaldılıb. Bu heykəllərin əksəriyyəti o vaxt ucaldılır ki, biz tariximizin ən şərəfli, ən qürurlu günlərini yaşayırıq. Müzəffər Prezidentimizin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 30 illik həsrətimizə son qoydu, Qarabağın tacı Şuşa başda olmaqla, Qarabağ torpaqları azad olundu...

Bu gün biz Aşıq Ələsgərdən danışanda minillik poeziyamızda xüsusi yeri olan bir sənətkardan danışırıq. Çünki bizim poeziyamız çox zəngindir, böyükdür. Amma Orta əsr şairlərinin dillərində ərəb, fars kəlmələri o qədər çoxdur ki, indi onları yeni nəsillər lüğətsiz oxuya bilmirlər. Aşıq Ələsgərin, ümumiyyətlə, aşıq poeziyasının dili isə o qədər şəffafdır, bulaq suyu kimi o qədər təmizdir ki, onu biz lüğətsiz oxuyuruq...

Mən sizə bəstəkarlar və musiqiçilərin heykəlləri haqqında dedim, amma onu da demək istəyirəm ki, bu illərdə bizim ədəbiyyatımızla da bağlı heykəllər ucaldılıb. Dədə Qorqudun, Koroğlunun, Türk dünyasının böyük klassikləri Əlişir Nəvainin, Çingiz Aytmatovun və bu gün də Aşıq Ələsgərin heykəli ucaldılıb. Ona görə də mən Yazıçılar Birliyi adından bir daha cənab Prezidentə təşəkkürlərimi və minnətdarlığımı bildirmək istəyirəm.

Sonda bir arzumu da bildirmək istəyirəm, cənab Prezident, gün o gün olsun ki, Cəlil Məmmədquluzadənin heykəlinin də açılışına gələk...".

***

**Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı:** "Ulu öndərimiz Heydər Əliyev vaxtilə Dədə Qorqudun yubileyində bir məşhur cümlə işlətdi, dedi ki, ozan, aşıq mədəniyyəti bizim milli varlığımızın ən mötəbər qaynağıdır. Doğrudan da, bütün sonrakı dönəmdə bizim bu yoldakı irəliləyişimizdə Prezident cənab İlham Əliyev də bu məsələni diqqətdə saxladı. Gördük ki, böyük Dədə Qorqud abidəsi, möhtəşəm Koroğlu heykəli ərsəyə gəldi. Bu gün ucaldılan Aşıq Ələsgər heykəli də bir daha bu doğru yolun nə qədər diqqətdə olduğu, vacib olduğu mənasında bizim diqqətimizdədir...

Elə sənətkarlar var ki, onlar mənsub olduqları sənət sahəsində öz qüdrətləri ilə həmin sahənin rəmzinə çevrilirlər. Bu mənada Aşıq Ələsgər də ozan-aşıq mədəniyyətinin rəmzi olan, onun sənət pasportu rolunu oynayan bir şəxsiyyət, bir sənətkar səviyyəsindədir və hamımızın da gözündə o ucalıqda dayanır. Aşıq Ələsgərin dili, poeziyası Azərbaycan dilinin, Azərbaycan ruhunun, türk ruhunun, belə deyək ki, çox monumental bir göstəricisidir... Aşıq Ələsgər sıradan bir aşıq deyil, o, böyük ustaddır, filosof ustaddır...

O mənada mən düşünürəm ki, Aşıq Ələsgər irsinə Ulu öndərimiz Heydər Əliyevin verdiyi böyük dəyər, bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin də ucaltdığı bu heykəl, doğrudan da, hamımız üçün bir qürur mənbəyidir, elə bir ümid yeridir ki, heykəlin ikinci açılışı Göyçəmizdə olacaq və Göyçədə Aşıq Ələsgər heykəlinin açılışı sizli-bizli bir yerdə olacaq...".

***

Çıxışlardan sonra Prezident İlham Əliyev ustad sənətkar Aşıq Ələsgərin abidəsinin açılışını edib.

Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub.

Sonda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, heykəlin müəllifi Xalq rəssamı Natiq Əliyev, memarı Azərbaycan Rəssamlıq Akademiyasının baş müəllimi Malik Babayevdir.

# Növbəti "Yaradıcı Həftə" başlanır

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2-8 oktyabr tarixlərində ölkəmizdə növbəti "Yaradıcı Həftə" keçiriləcək.




Layihə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası çərçivəsində həyata keçirilən mədəniyyət və yaradıcı sənayelər sahəsində yerli və beynəlxalq mütəxəssisləri bir araya gətirən təşəbbüsdür.

Layihənin əsas məqsədi mədəniyyət və yaradıcı sənayelərin (MYS) vahid bir ekosistem kimi formalaşdırılması və bu sahənin bazar iştirakçılarının fəaliyyətinin dəstəklənməsi, eyni zamanda sahəvi klasterləşmənin təşviq edilməsidir.

"Yaradıcı Həftə"də müvafiq dövlət qurumlarının rəhbərləri, yaradıcı sektorun təmsilçiləri, beynəlxalq və yerli təşkilatların nümayəndələri, yüzlərlə yaradıcı şəxs, şirkətlər və ictimai birliklər iştirak edəcək.

"Yaradıcı Həftə" ərzində "Baku Cinema Breeze" platforması çərçivəsində film festivalları, X Bakı Beynəlxalq Kitab Sərgisi və digər tədbirlər keçiriləcək.

"Baku Cinema Breeze" platforması XV Bakı Beynəlxalq Film Festivalı, VIII "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı, VII ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı, "Alove" Animatorların Akselerasiyası və Türk Animasiyası Festivalını əhatə edir. Bundan əlavə, Azərbaycanda ilk dəfə Şərq və Mərkəzi Asiya Ölkələrinin Film Marketi təşkil ediləcək.

10-cu Bakı Beynəlxalq Kitab Sərgisi rəqəmsal əsrdə ölkəmizdə kitab biznesinin necə inkişaf etdirilməsi ilə bağlı yerli və beynəlxalq təcrübə və ideyaları bölüşmək üçün ideal platformadır.

Qeyd edək ki, ölkəmizdə ilk dəfə 2023-cü ildə keçirilən "Yaradıcı Həftə" çərçivəsində ümumilikdə 20-yə yaxın tədbir (Mədəniyyət və Yaradıcı Sənayelər Forumu, Mədəniyyət və Yaradıcı Sənayelər Sərgisi, "Musiqi sənayesi platforması", CINEMO Mobil Film Festivalı və s.) keçirilib. 10-u yeni yaradılmış biznes subyekti olmaqla ümumilikdə 50-yə yaxın biznes subyekti tədbirlərə qatılıb.

# Kitabla böyük görüş yeddi gün sürəcək

## X Bakı Beynəlxalq Kitab Sərgisinin 18 ölkədən qonaqları var

*əvvəli səh. 1-də*

Qeyd olundu ki, ötən üç ildə beş gün davam edən kitab bayramı bu dəfə yeddi gün sürəcək. Sərgi çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları formatında ümumilikdə 327 tədbir keçiriləcək. Bu statistika Bakı Beynəlxalq Kitab Sərgisinin 15 illik tarixində ən yüksək göstəricidir.

Diqqətə çatdırıldı ki, sərgidə dünyaşöhrətli irland yazar Con Boyn və alman yazar Vulf Dorn "fəxri qonaq" qismində iştirak edəcəklər.

Con Boyn dünyanın 46 dilinə tərcümə olunan 25 kitabın müəllifidir. İrland yazar ilə görüş oktyabrın 3-də saat 11:00-da sərgi məkanın "Füzuli" təqdimat zonasında olacaq.

Vulf Dorn Almaniyanın psixoloji triller janrında ən populyar yazıçılarından hesab olunur. Debüt əsəri olan "Psixiatr" ona böyük şöhrət qazandırıb.




Sərginin Almaniyadan daha bir yazar qonağı Fəriba Vəfi olacaq. Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olan yazıçı Almaniyanın nüfuzlu "LiBeraturpries" ədəbi mükafatına layiq görülüb.

Sərginin fəxri yazarı Rövşən Abdullaoğlu beynəlxalq sərgilərin yazarlar üçün əhəmiyyətindən danışıb, Bakı Beynəlxalq Kitab Sərgisinin bu mənada diqqətəlayiq platforma olduğunu deyib.

"Qanun" nəşriyyatının rəhbəri Şahbaz Xuduoğlu kitab oxuma mədəniyyətindən söz açıb, ölkəmizdə kitab sənayesinin mövcud vəziyyəti barədə fikirlərini bölüşüb. Bildirib ki, "Qanun" nəşriyyatı sərgidə endirimli qiymətlərlə oxuculara kitablar təqdim edəcək.

Sonra media nümayəndələrinin sualları cavablandırılıb.

Xatırladaq ki, sərgi zamanı gün ərzində ziyarətçilərin metronun "Elmlər Akademiyası", "28 May" və "Koroğlu" stansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin ediləcək. Sərgi hər gün səhər saat 10:00-dan axşam saat 20:00-dək ziyarət üçün açıq olacaq. Sərgiyə giriş ödənişsizdir.

X Bakı Beynəlxalq Kitab Sərgisi haqqında daha ətraflı məlumat bakubookfair.az saytında.

**Lalə**

# Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri seçilib

Sentyabrın 30-da yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin birinci sessiyası başlayıb. Payız sessiyasının ilk iş günündə, gündəlikdəki digər məsələlərlə yanaşı, Milli Məclisin komitələrinin tərkibinin formalaşması məsələsinə baxılıb, müvafiq qərarlar qəbul olunub.

Milli Məclisin qərarı ilə aşağıdakı deputatlar Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri seçiliblər: Abbasov Aqil Məhəmməd oğlu, Ağayeva Ülviyyə Cavanşir qızı, Akimova Elnarə Seydulla qızı, Alıyev Sahib Eyvaz oğlu, Aslanov Novruzəli Davud oğlu, Feyziyev Cavanşir Əyyub oğlu, Həmzəyeva Ülviyyə Tapdıq qızı, Məhərrəmzadə Əlibala Səttar oğlu, Rüstəmxanlı Tənzilə Yolçu qızı, Seyidzadə Şahin Kamil oğlu, Səfərov Nizami Abdulla oğlu, Zabelin Mixail Yuryeviç.



Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğludur.

Qeyd edək ki, parlamentdə 15 daimi komitə fəaliyyət göstərir.

Bundan əlavə, Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası yaradılıb. Müvəqqəti komissiyanın vəzifə və səlahiyyətlərinə Milli Məclisin və ya Milli Məclis sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlərlə bağlı hallara dair hesabatların, bu istiqamətdə önləyici addımlara dair təkliflərin hazırlanması, bu barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə bəyanatların verilməsi, qanunvericiliyin xarici müdaxilələr və hibrid təhdidlər baxımından araşdırılması, təhlil edilməsi və Milli Məclisə təkliflərin verilməsi və s. aiddir.

# Təsviri sənət sahəsində əlaqələrə mühüm töhfə

## Mədəniyyət Nazirliyində "Xəzər" Biennalesinin iştirakçıları ilə görüş

**Uzunillik fasilədən sonra Bakıda beynəlxalq təsviri sənət layihəsi – "Xəzər" Biennalesi bərpa olunur.**

Sentyabrın 30-da Mədəniyyət Nazirliyində "İncəsənətdə və abstrakt sənətdə antibiznes" mövzusunda "Xəzər" Biennalesi çərçivəsində Bakıda səfərdə olan bir sıra ölkələrin rəssamlar ittifaqlarının təmsilçiləri ilə görüş keçirilib.

Görüşdə İbrahim Vəlixocayev (Özbəkistan), Nərgiz Həmidova (Tacikistan), Umirbek Jubaniyazov (Qazaxıstan), Laslo Lelkes (Macarıstan), Quram Sertsvadze (Gürcüstan), Ankara Rəsm və Heykəl Muzeyinin direktoru Erdem Akkurt və Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov iştirak ediblər.

Qonaqları salamlayan mədəniyyət naziri Adil Kərimli "Xəzər" Biennalesi platformasının əhəmiyyətini qeyd edib. Bildirib ki, layihə çərçivəsində Xəzəryanı və digər ölkələrdən rəssamlar, kuratorlar və ekspertlərin bir araya gəlməsi diqqətəlayiq hadisədir.




Biennale ölkələrimiz arasında təsviri sənət sahəsində əlaqələrin genişlənməsinə öz töhfəsini verir, təcrübə mübadiləsinə münbit şərait yaradır.

Çıxış edən qonaqlar da biennalenin mədəni mübadilənin dərinləşməsində rolunu vurğulayıb, birgə sərgilərin keçirilməsinin faydalı olacağını bildiriblər.

Söhbət zamanı "Xəzər" Biennalesinin əhatə dairəsinin genişlənməsindən məmnunluq ifadə olunub.

Görüşün sonunda xatirə şəkilləri çəkdirilib.

Xatırladaq ki, Bakıda "Xəzər" Biennalesi ilk dəfə 1989-cu ildə, ikinci dəfə 2013-cü ildə keçirilib.

# Şəhidlərin əziz xatirəsi yad edilib

**Müasir tariximizə qızıl hərflərlə yazılan və şanlı Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin dördüncü ildönümünü yaşayırıq. 2020-ci il sentyabrın 27-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında olan torpaqlarımızın azad edilməsi uğrunda haqq savaşına başladı. 44 günlük müharibənin nəticəsi olaraq ölkəmizin ərazi bütövlüyü bərpa olundu, bu yolda minlərlə igidimiz şəhidlik zirvəsinə ucaldı.**



Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş bütün şəhidlərimizə ehtiram əlaməti olaraq sentyabrın 27-si Azərbaycanda Anım Günü elan edilib.

Bakıda inşası davam etdirilən Zəfər parkının girişindəki xatirə daşı bu il Anım Günündə minlərlə insanın ziyarət yerinə çevrilib.

Sentyabrın 27-də Mədəniyyət Nazirliyinin kollektivi, nazirliyin tabeliyində fəaliyyət göstərən aparıcı mədəniyyət müəssisələrinin rəhbərləri, tanınmış mədəniyyət xadimləri Zəfər parkının girişindəki xatirə daşının önünə gül dəstələri qoyub, qəhrəman Vətən övladlarının ölməz ruhları qarşısında ehtiramlarını bildiriblər.

***

Həmin gün Azərbaycan Mədəniyyəti Günləri ilə bağlı Astana şəhərində olan nümayəndə heyəti ölkəmizin Qazaxıstandakı səfirliyinə gələrək, şəhidlərimizin anım mərasimində iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə səfirliyin binasında Ulu öndər Heydər Əliyevin abidəsinin önünə tər çiçəklər düzərək əziz xatirəsini ehtiramla anıblar.

Sonra səfirlikdə şəhidlərin xatirəsinə yaradılmış guşənin qarşısına çiçəklər düzülüb.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək Anım Gününün tarixi əhəmiyyətindən söz açıb. Bildirib ki, bu tarix Azərbaycan dövlətinin gücünün və xalqımızın birliyinin təzahürüdür. "Xalqımıza əbədi Zəfər ruhu bəxş edən şəhidlərimizi rəhmətlə anırıq. Qəhrəman Vətən övladlarının fədakarlığı sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Bu gün xaricdə yaşayan bütün soydaşlarımız şəhidlərin xatirəsini böyük ehtiramla anırlar. 27 Sentyabr tarixi Azərbaycan xalqının yaddaşında əbədi olaraq qalacaq", – deyə nazir qeyd edib.

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov və digər çıxış edənlər Vətən yolunda canını fəda edənlərin qanının yerdə qalmadığını, ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpa edildiyini bildiriblər.

# "Nəsildən-nəslə teatr"

**Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) "Nəsildən-nəslə teatr" layihəsi davam edir.**

Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kiçik səhnəsində Xalq artisti Nurəddin Mehdixanlının iştirakı ilə "Aktyorluq: təbiət və paradoks" mövzusunda seminar keçirilib.

27 Sentyabr – Anım Gününə təsadüf edən tədbirin əvvəlində şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

MEMİM-in direktor vəzifəsini icra edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov layihənin önəmi barədə fikirlərini bölüşüb.

Teatrşünas Dağlar Yusifin moderatoru olduğu paneldə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aparıcı səhnə ustası, Xalq artisti Nurəddin Mehdixanlı aktyor sənətinin təbiət-mədəniyyət əksliyinə dayanan mahiyyəti, nəzəri-praktiki əsasları, aktyorun yaradıcılıq psixologiyası, ənənə, müasirlik və yeni yaradıcı tendensiyalardan söhbət açıb.

Sənətkar bildirib ki, nə qədər istedadlı, fədakar gənclər varsa, teatr əbədi olaraq yaşayacaq. Onun sözlərinə görə, teatr insanları kamilləşməyə aparan yoldur.

Qeyd edək ki, seminarın məqsədi nəsillər arasında fikir və təcrübə platforması yaratmaqla Azərbaycanda teatr prosesinin inkişafına töhfə vermək, teatr sənətinə müasir beynəlxalq tendensiyaların tətbiqi, gənclərin bu sahəyə marağının artırılması və onların prosesə cəlb edilməsi ilə aktiv yaradıcı mühitin formalaşdırılmasıdır.



"Nəsildən-nəslə teatr" seminarları çərçivəsində teatr xadimləri ilə interaktiv görüşlərin davamlı təşkili nəzərdə tutulur.

# Mədəniyyət siyasəti və təmayülləri

**Mədəniyyət Siyasəti və Təmayülləri Kompendiumu Assosiasiyasının növbəti, 7-ci assambleyası 26-27 sentyabr tarixlərində Monteneqronun Podqoritsa şəhərində keçirilib. Monteneqronun Mədəniyyət Nazirliyi və Podqoritsa Aralıq dənizi Universiteti ilə birgə həmçinin ekspertlərin görüşü və mədəniyyət siyasəti konfransı təşkil olunub.**

Tədbirlərdə Mədəniyyət Nazirliyinin Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsinin müdir müavini, assosiasiyanın Azərbaycan üzrə eksperti Yaşar Hüseynli və Kompendium layihəsinin eksperti, UNESCO yanında Beynəlxalq Musiqi Şurası Azərbaycan bölməsinin sədri Nigar Axundova iştirak ediblər.

Mədəniyyət Siyasəti və Təmayülləri Kompendiumu mədəniyyət siyasəti sahəsində müqayisəli təhlillər üzrə aparıcı beynəlxalq platformadır. Kompendium metodologiyasına əsasən, Avropa ölkələri tərəfindən mütəmadi olaraq hazırlanan milli məruzələr müvafiq portalda yerləşdirilir və tədqiqatçılar, mədəniyyət ictimaiyyəti tərəfindən istifadə olunur (https://www.culturalpolicies.net/database/search-by-country/).

Mədəniyyət siyasəti sahəsində beynəlxalq təcrübədən bəhrələnmək, Azərbaycanda gedən mədəni-siyasi proseslər haqqında obyektiv informasiyanı dünya ictimaiyyətinə çatdırmaq kimi imkanları nəzərə alaraq, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi 1999-cu ildən etibarən bu platformaya qoşularaq fəal iştirak edir.

# Bakı Dövlət Sirki beynəlxalq festivallarda təmsil olunub

**Bakı Dövlət Sirki yeni mövsümdə iki beynəlxalq festivalda iştirak edib.**



Kollektiv 12-15 sentyabr tarixlərində Rusiyanın ən böyük stasionar şapito-sirki – "Svetnoy bulvarda" Moskva Nikulin Sirkində keçirilən "Artist" II Beynəlxalq Sirk Festivalında "fəxri qonaq" qismində təmsil olunub. Festivalda 19 ölkədən 87 sirk artisti iştirak edib.

Bakı Dövlət Sirkinin direktor əvəzi Nahid Ağayev 19-22 sentyabr tarixlərində III Minsk Beynəlxalq Sirk Sənəti Festivalında münsif qismində iştirak edib.

17 ölkədən sirk artistlərinin 32 çoxjanrlı çıxışlarının təqdim olunduğu festivalda azərbaycanlı sirk artisti Aldana Abdullayeva da öz məharətini göstərib. Onun ifası yüksək dəyərləndirilərək mükafata layiq görülüb.

Qeyd edək ki, hər iki beynəlxalq festivalın təşkil olunmasında məqsəd sirk sənətini populyarlaşdırmaq, dünyanın müxtəlif ölkələrindən olan gənc istedadları üzə çıxarmaq və onların ifaçılıq məharətini artırılmalarını stimullaşdırmaq, beynəlxalq mədəni əlaqələri inkişaf etdirməkdir.

# İşğaldan azad edilən ərazilərdə ilk incəsənət tədrisi ocağı

**Qazaxıstan Respublikası tərəfindən Füzuli şəhərində inşa olunan və bu ilin mart ayında istifadəyə verilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi 2024/2025-ci tədris ilindən qapılarını müəllim və şagirdlərin üzünə açıb. Bu mərkəz işğaldan azad edilən ərazilərdə incəsənət təhsilinin başladığı ilk tədris ocağı kimi xüsusi əhəmiyyət daşıyır.**

"Böyük Qayıdış" proqramı çərçivəsində Bakı və digər rayonlardan doğma yurdlarına köçən Füzuli sakinlərinin övladları üçün yeni tədris ilində fortepiano, qanun, qarmon, tar, violin və rəqs ixtisasları üzrə tədris həyata keçirilir. İlk olaraq 24 şagird təhsilə cəlb edilib. Beş təcrübəli müəllim onlara sənətin sirlərini öyrədir.

Şagirdlərdən qarmon üzrə Famil Məmmədli, tar üzrə Səma Tanrıverdiyeva, təsviri sənət (rəsm) üzrə Aysu Qocazadə, fortepiano ixtisasında Nigar Abdullazadə, xanəndəlikdə isə Əli Həzizadə seçdikləri sahələrə sevgi ilə bağlanıblar və uğur qazanmaq əzmi ilə öyrənməyə davam edirlər.

Uşaq Yaradıcılıq Mərkəzi Füzuli şəhərində uşaq və yeniyetmələrin yaradıcılıq qabiliyyətlərini ortaya qoymalarına, incəsənət sahəsində biliklərə yiyələnmələrinə münbit şərait yaradacaq. Növbəti mərhələlərdə digər sakinlərin Füzuliyə qayıdışı ilə, təbii olaraq, şagirdlərin sayı da artacaq.

# Bakı payızının kino havası

## "Baku Cinema Breeze" beş festival layihəsini bir araya gətirib

*əvvəli səh. 1-də*

### Türkdilli ölkələr arasında animasiya körpüsü

2-4 oktyabr tarixlərində Bakıda ilk dəfə Türk Dünyası Beynəlxalq Animasiya Festivalı (ATA festivalı) keçiriləcək.

Türkdilli Animasiya Assosiasiyası və TÜRKSOY-un təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, ARKA-nın dəstəyi ilə "Baku Cinema Breeze" Festivalı çərçivəsində keçirilən tədbirin məqsədi türkdilli ölkələr arasında animasiya sənəti vasitəsilə əməkdaşlıq, innovasiya və mədəni mübadilələri təşviq etməkdir.

Festival çərçivəsində Türk dünyasından görkəmli rejissorların ustad dərsləri, türk respublikalarının kino sənayesi ilə bağlı dəyirmi masalar keçiriləcək. Türk dünyası animasiyasına töhfələrə görə xüsusi mükafatlar da təqdim olunacaq.

### VII ANİMAFİLM festivalı

2-6 oktyabr tarixində paytaxtımızda VII ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək. "Azərbaycan" kinoteatrında keçiriləcək festival Azərbaycan Animasiya Assosiasiyası və "Peri Film" MMC-nin təşkilatçılığı, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin təşkilati dəstəyi ilə BCB festivalı çərçivəsində baş tutacaq.

ANİMAFİLM-in builki mövzusu "Sevgi"dir. Animasiya duyğuları vizual ifadə etməyə imkan verdiyindən sevgi məfhumunu əhatəli çatdırmaq üçün mükəmməl bir vasitədir.

Festivalın müsabiqə proqramına bu il 2 beynəlxalq və 2 yerli kateqoriya üzrə 37 ölkədən 196 film daxil olub. Seçim komissiyası bütün filmləri dəyərləndirərək müsabiqə şərtlərinə uyğun gələn 18 ölkədən 48 filmin iştirakını məqbul sayıb. Onlardan 12 film yerli, 36 film isə beynəlxalq kateqoriyalarda yarışacaq. Filmlər beynəlxalq münsiflər heyəti və tamaşaçılar tərəfindən qiymətləndiriləcək, qaliblər festivalın bağlanış mərasimində elan olunacaq.

"Dünya ölkələrindən sevgilərlə" adlı müsabiqədənkənar proqramda Portuqaliya, Yunanıstan, Gürcüstan və Çexiyadan animasiya əsərləri təqdim olunacaq. Bundan əlavə, animasiya həvəskarları ATA festivalı ilə əməkdaşlıq çərçivəsində "ATA: Türk dünyasından seçilmiş animasiya filmləri" kolleksiyasını da izləmək şansı əldə edəcəklər. Festival çərçivəsində həmçinin məşhur Avropa müəlliflərinin əsərləri əsasında çəkilmiş animasiya qorxu antologiyası silsiləsindən olan "Qırmızı dəmir yolu" serialı da nümayiş etdiriləcək.




Festivalın sonuncu – peşəkarlar üçün proqramında isə yerli animasiya film layihələri təqdim olunacaq və beynəlxalq münsiflər heyəti, eləcə də xüsusi qonaqlarla görüşlər, ustad dərsləri və vörkşoplar təşkil ediləcək. Proqram çərçivəsində məşhur özbək rejissoru Dante Rustavın, "Netflix" və "Apple TV"nin kanadalı animatoru Matthev Lyonun, rəngarəng üslubu ilə seçilən peşəkar illüstrasiyaçı Leyla Əlinin, İngiltərədə yaşayan "Stop motion" rejissoru Ayan Novruzun ustad dərsləri də festivala rəng qatacaq.

### Bakı Beynəlxalq Film Festivalı daha da böyüyüb

Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi Bakı Beynəlxalq Film Festivalı 15-ci dəfə keçiriləcək. 4-8 oktyabr tarixlərində baş tutacaq festival bu il BCB festivalının bir hissəsidir.

Açılış mərasimi oktyabrın 5-də saat 19:00-da Nizami Kino Mərkəzində keçiriləcək. Festival çərçivəsində Almaniya, Fransa, İtaliya, İngiltərə, Koreya, Çin, Hindistan, Kolumbiya, Rusiya, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Gürcüstan, Moldova, Xorvatiya, İran – ümumilikdə 26 ölkədən 79 film Nizami Kino Mərkəzində beş gün müddətində saat 11:00-dan etibarən nümayiş olunacaq. Giriş sərbəstdir.




Yubiley yaşına bir sıra yeniliklərlə gələn festival bu ildən tammetrajlı filmlərin müsabiqəsini də keçirir. Festivalın beynəlxalq müsabiqə proqramında debüt tammetrajlı bədii və qısa filmlər yarışacaq.

Yerli müsabiqə proqramına qısametrajlı bədii, sənədli filmlər və sosial çarxlar qəbul olunub. Tələbələr ayrıca nominasiyada yarışmaq imkanı qazanacaqlar. Ümumilikdə yerli müsabiqədə 25 ekran əsəri yarışacaq.

Müsabiqədənkənar proqramlardan olan "Dili bizim"də xaricdə yaşayan həmvətənlərimizin Azərbaycan dilində çəkdikləri filmlər nümayiş olunacaq.

Festivalın "British Council"la əməkdaşlığı nəticəsində bu il də BAFTA mükafatına namizəd filmlərin xüsusi nümayişi təşkil olunacaq.

Həmçinin "TRT Sinema"nın müdiri Faruk Güvənin təqdimatı, birgə film istehsalı ilə bağlı fikir mübadiləsi, "Kömür" filminin Azərbaycan premyerası, həmçinin ustad dərsləri, yerli və xarici film nümayişlərindən sonra müəlliflərlə müzakirələr həyata keçiriləcək.

Festivalın əsas mükafatı "Qızıl nar"la yanaşı, bəzi nominasiyalar üzrə qaliblərə xüsusi mükafat və diplomlar da təqdim olunacaq.

Qeyd edək ki, Gənc Kinematoqrafçılar Mərkəzi tərəfindən təsis edilən festival əvvəlki illərdə "START" adı ilə fəaliyyət göstərib.

### "DokuBaku" – 8-ci dəfə

1-7 oktyabr tarixlərində VIII "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı keçirilir. Festivalın builki mövzusu "iCosmos"dur. Festivalın mərkəzində personajların taleyini formalaşdıran, həm ani, həm də gecikmiş seçimlərin nəticələrini araşdıran hekayə səyahəti dayanır. Hər bir fərd daxili kosmosa, daxili azadlıq və harmoniya dünyasının unikal əksinə malikdir. Zaman və məkanda səyahət edərkən, daxili kosmosumuz ətrafımızdakı dünya təcrübəmizi formalaşdırır...




"DokuBaku" festivalı Höte İnstitutu (Almaniya), YARAT Müasir İncəsənət Məkanı, Azərbaycan Fotoqrafları Birliyi və Azərbaycan Kinematoqrafçılar İttifaqının tərəfdaşlığı ilə gerçəkləşir.

Əsası 2017-ci ildə qoyulan festivalın builki proqramında onlarla ölkədən təqdim olunmuş 200 film arasından seçilmiş 72 film yer alıb. Finalçılar 36 ölkəni təmsil edir. Ekran əsərləri "Landmark", "Cineclub", "Kapellhaus Baku" və Nizami Kino Mərkəzində Azərbaycan subtitrləri ilə orijinal dildə nümayiş olunur.

### "Fikir çəkmə, telefona çək!"

Bu il ikinci dəfə keçirilən CINEMO – Beynəlxalq Mobil Film Festivalı da "Baku Cinema Breeze"in festival havasına qoşulub.




Mədəniyyət Nazirliyi və ARKA-nın dəstəyi ilə "Fikir çəkmə, telefona çək!" devizi altında ötən ildən keçirilən festival BCB çərçivəsində öz təqdimatlarını reallaşdıracaq.

Festivalın əsas proqramı isə dekabr ayında təqdim olunacaq.

Bu layihə yalnız mobil telefon ilə çəkilmiş və festivala qəbul edilmiş bütün filmlərin canlı nümayişini keçirən festival kimi fəaliyyətə başlayıb. Festivalın adı "Cinema" sözünün analogiyası olmaqla, "CINEma" və "MObile" sözlərinin birləşməsindən əmələ gəlib.

CINEMO kinematoqrafik hekayələr yaratmaq üçün ən son texnologiyalardan yararlanmaqla mobil telefondan istifadə edən istedadlı və yaradıcı kinorejissorları, mobiloqrafları, kinematoqrafları dəstəkləmək məqsədi daşıyır. Festivalda xarici və yerli filmlər yarışır.

**Lalə Azəri**

№73 (2138)
2 oktyabr 2024
www.medeniyyet.az

# Yeni tariximizin qəhrəmanlıq salnaməsi



Bölgələrdə 27 Sentyabr – Anım Günü ilə bağlı silsilə tədbirlər keçirilib. Tədbirlərdə 2020-ci ilin Vətən müharibəsinin tariximizdəki müstəsna yerindən, 44 gün ərzində 30 illik işğala son qoyan Azərbaycan Ordusunun yeni tariximizə yazdığı qəhrəmanlıq salnaməsindən bəhs olunub, şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində Anım Gününə həsr olunmuş tədbirlər keçirilib. Çıxışlarda Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə Vətən müharibəsinin başladığı 27 sentyabr tarixinin Anım Günü kimi qeyd edilməsinin ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizə dərin ehtiramın ifadəsi olduğu vurğulanıb.

***





Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Xudat şəhər Uşaq musiqi məktəbində “Dəmir yumruq” adlı tədbir keçirilib. Şagirdlərin ifasında Qələbəyə, şəhidlərə həsr olunmuş şeirlər səsləndirilib.

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı və Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzinin iştirakı ilə “Zəfər yürüşü” adlı rekviyem kompozisiya keçirilib. “Hər şey o gündən başladı” adlı videoçarx nümayiş etdirilib. Şəhidlərə həsr olunmuş şeirlər və mahnılar səsləndirilib. Yerli yazar Məhərrəm Mustafanın “Əlinin müqəddəs əmanəti” hekayəsi əsasında səhnəcik təqdim olunub.

Quba rayon Mərkəzi Kitabxanası uşaq şöbəsinin əməkdaşları məktəb şagirdləri ilə birlikdə Anım Günü ilə bağlı Quba Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçənlərin məzarlarını ziyarət ediblər.

***

Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində keçirilən anım tədbirində Münəvvər Kələntərli adına şəhər klubunun “Kürə” bədii qiraət dərnəyi üzvlərinin ifasında ədəbi-bədii kompozisiya təqdim edilib. “Şəhidlər ölməz!” adlı videoçarx nümayiş olunub.

***

Astara Dövlət Rəsm Qalereyasında Anım Günü münasibətilə rəsm təlimi təşkil olunub. Təlimdə 10-dan çox həvəskar rəssam iştirak edərək vətənpərvərlik mövzusunda rəsmlər çəkiblər.

***

Vətən uğrunda canlarını fəda edənlərin xatirəsi Ağdam rayonunda da ehtiramla anılıb. Şəhidlərin xatirə kompleksində keçirilən mərasimdə çıxış edənlər 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı Zəfərə imza atmasından danışılıb. Bildirilib ki, 2023-cü il sentyabrın 19-da həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Qarabağdakı qeyri-qanuni erməni hərbi birləşmələri tərk-silah edilib, ölkəmizin bütün ərazisində suverenliyimiz tam bərpa olunub.

Ağdam Dövlət Dram Teatrında (Quzanlı qəsəbəsi) Lənkəran Dövlət Dram Teatrının yaradıcı heyəti tərəfindən “Haqqın 44 günü” adlı tamaşa-kompozisiya nümayiş olunub. Tamaşada 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın şanlı Azərbaycan Ordusu tərəfindən cəmi 44 günə azad edilməsi təsirli səhnələrlə əksini tapıb.

***










Xocalı rayon Mədəniyyət evində (Goranboy rayonu) rayon Gənclər və İdman İdarəsi ilə birgə tədbir təşkil edilib. Çıxışlarda bildirilib ki, Vətən övladlarının şücaəti sayəsində dədə-baba torpaqlarımız erməni işğalından azad edilib, ərazi bütövlüyümüz təmin olunub. Anım Günü ilə əlaqədar sənədli film nümayiş etdirilib.

***



Göyçay rayon Mədəniyyət Mərkəzində Anım Günü ilə əlaqədar “Fateh” adlı tamaşa nümayiş olunub. Mərkəz əməkdaşlarının hazırladığı tamaşada Fateh adlı gəncin Vətən müharibəsində iştirak etməsi və şəhadətə yüksəlməsindən bəhs edilir.

Şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələrinin izlədiyi səhnə əsəri alqışlarla qarşılanıb.

***

Astara rayon Mərkəzi Kitabxanasında isə “Gənc əsgərin şəhidlik zirvəsi” mövzusunda tədbir keçirilib. Vətən müharibəsi şəhidi Samir Səmədova həsr olunan tədbirdə Mətləb Səmədov oğlu ilə bağlı xatirələrini bölüşüb. Kitabxananın tərtibatçı rəssamı Aysel Əlizadənin çəkdiyi Samir Səmədovun portreti şəhidin atasına təqdim olunub.

***

Mil-Muğan RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində Anım Günü münasibətilə silsilə tədbirlər təşkil edilib. Regionda yerləşən şəhidlər xiyabanları, şəhid məzarları, şəhid ailələri ziyarət olunub. Şəhid ailələrinin, qazilərin, mədəniyyət işçilərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə vətənpərvərlik ruhunda şeirlər səsləndirilib, kompozisiyalar nümayiş olunub.

***

Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində Anım Günü münasibətilə silsilə tədbirlər təşkil olunub, regionda yerləşən şəhidlər xiyabanları ziyarət olunub. Tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində canından keçənlərin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağı vurğulanıb.

***

Şirvan, Biləsuvar Salyan, Hacıqabul Tarix-Diyarşünaslıq muzeylərində, Neftçala və Salyan Dövlət Rəsm qalereyalarında, Şirvan şəhər, Neftçala və Biləsuvar rayon Mərkəzi kitabxanalarında, Şirvan şəhər və Hacıqabul rayon Heydər Əliyev mərkəzlərində, eləcə də Hacıqabul şəhər Uşaq musiqi məktəbində Anım Gününə həsr olunan tədbirlər, sərgilər keçirilib.

***



Şəki-Zaqatala RMİ-nin rəhbərliyi və əməkdaşları tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçənlərin məzarları ziyarət edilib. Şəhidlərin məzarları üzərinə gül dəstələri qoyulub, əziz ruhlarına dualar oxunub.

***

Şirvan-Salyan RMİ, Biləsuvar rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Şirvan-Salyan regional nümayəndəliyinin dəstəyi ilə “27 sentyabr: xalqımızın qəhrəmanlıq tarixi” mövzusunda dəyirmi masa keçirilib. Çıxışçılar Zəfər tarixindən söz açaraq qəhrəman oğulların döyüş şücaətlərinin geniş şəkildə təbliğ olunmasının əhəmiyyətini qeyd ediblər.

***

İmişli rayon Mərkəzi Kitabxanasında Yazıçılar Birliyinin üzvü Sveta Şəms Bünyatovanın İmişli şəhidlərinə həsr etdiyi “Şəhid analarının xatirələri” kitabının təqdimatı keçirilib. Müəllif kitab haqqında məlumat verib. Şəhid valideynləri də kitab haqqında öz təəssüratlarını bölüşüblər.

***

Dağlıq Şirvan RMİ-nin tabeliyindəki İsmayıllı rayon mədəniyyət müəssisələrində də Anım Günü ilə bağlı silsilə tədbirlər keçirilib. Tədbirlərdə Vətən müharibəsində son damla qanlarına qədər döyüşərək şəhidlik zirvəsinə yüksələn igidlərimizdən söz açılıb. Şəhidlərin xatirəsinin hər birimizin qəlbində əbədi yaşayacağı vurğulanıb.

***

Vətən müharibəsinin başlanmasının dördüncü ildönümü ilə əlaqədar Lənkəran şəhər Heydər Əliyev Mərkəzi və GİKM-in Lənkəran-Astara regional nümayəndəliyinin əməkdaşları gənc könüllülərlə Şəhidlər xatirə kompleksini ziyarət ediblər. Sonra Vətən müharibəsi şəhidi Samir Quliyevin ailəsi ziyarət edilib.

***

Yevlax şəhər Yaradıcılıq evində Ağdaş rayon Mədəniyyət Mərkəzi tərəfindən hazırlanmış “Şəhid atası” tamaşası göstərilib. Səhnə əsərində Vətən sevgisinin qəhrəman oğulların qanına, canına necə həkk olunduğu təsirli detallarla nümayiş etdirilib.

**Hazırladı: N.Məmmədli**

# Keşikçidağda aparılan arxeoloji qazıntılarla bağlı seminar

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və AMEA Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığı ilə Karvan dərəsi kurqanlarında “Keşikçidağda arxeoloji qazıntılar və Yay məktəbi – 4” adlı layihə həyata keçirilir.



25 avqust – 5 oktyabr tarixlərini əhatə edən layihə Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi tarix üzrə fəlsəfə doktoru, dosent Şamil Nəcəfovun rəhbərliyi ilə gerçəkləşir.

Layihə çərçivəsində sentyabrın 28-də Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Arxeologiya və Antropologiya İnstitutunun təşəbbüsü və Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə “Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğu tərəfindən Ağstafa rayon Heydər Əliyev Mərkəzində elmi seminar keçirilib.

Dövlət Xidmətinin nümayəndəsi Emin İbrahimov, Ağstafa RİH-in əməkdaşları Hamil Həsənov və Cəlal Nəsibov, gənc könüllülər, tarix müəllimləri və rayon ziyalılarının iştirak etdiyi seminar Ulu öndərin Ağstafa rayon Heydər Əliyev Mərkəzinin önündə ucaldılmış abidəsinin ziyarət edilməsi ilə başlanıb. Daha sonra qonaqlar qoruq ərazisində aşkarlanmış maddi mədəniyyət nümunələrindən ibarət sərgi, qoruğa məxsus çap məhsulları, o cümlədən bir sıra artefaktların qoruq əməkdaşı tərəfindən bərpa edilməsi prosesi ilə tanış olublar.

“Keşikçidağ” qoruğunun direktoru Musa Mursaquliyev seminarı açıq elan edib. Layihənin ekspedisiya rəhbəri dosent Şamil Nəcəfov, institutun aparıcı elmi işçisi tarix üzrə fəlsəfə doktoru, dosent Vaqif Əsədov, elmi işçi, bərpaçı-rəssam Fərhad Fərmanov, Bakı Dövlət Universiteti Qazax filialının baş müəllimi İndira Səmədova, rayonun tarix müəllimləri, digər qoruqların əməkdaşları və Dövlət Xidmətinin Gəncə Regional Bölməsinin abidə mühafizəçilərinin çıxışları dinlənilib. Qoruğun əməkdaşı Firuzə Məmmədova layihə müddətində arxeoloji qazıntı sahəsini ziyarətlə bağlı statistik məlumatlar, media ilə əməkdaşlıq məsələləri barədə məlumat verib.

Dövlət Xidmətinin tabeliyindəki qoruqların elmi işçiləri də “Zoom” platforması vasitəsilə elmi seminara qoşulublar.

# Sərgi, müsabiqə, ekoloji aksiya...



“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Lənkəran şəhər Mədəniyyət Mərkəzi və tabe müəssisələrin əməkdaşlarının iştirakı ilə ağacəkmə aksiyası keçirilib. Aksiyanın məqsədi yaşıllıqların artırılmasını, ekoloji tarazlığın qorunmasını təşviq etməklə ətraf mühitin və sağlamlaşdırılmasına töhfə verməkdir.

***



Balakən rayon Mədəniyyət Mərkəzində “Məni tanıyın” adlı müsabiqə keçirilib. İncəsənətin bir sıra sahələrini (mahnı, rəqs, rəsm, bədii qiraət, instrumental ifa və s.) əhatə edən müsabiqədə 48 yeniyetmə və gənc iştirak edib. Fərqlənənlərə diplomlar təqdim olunub.

***

Ağdam rayon MKS-də “Yaşıl dünyamız” adlı tədbir keçirilib. Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti vurğulanıb. COP29-a aid videoçarx nümayiş olunub. Sonda ağacəkmə aksiyası keçirilib.

***



Biləsuvar rayon Heydər Əliyev parkında sərgi-plener təşkil edilib. Tədbir Biləsuvar Dövlət Rəsm Qalereyası və Heydər Əliyev Mərkəzinin birgə əməkdaşlığı ilə həyata keçirilib. Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov sərgilənən əsərlərlə tanış olub. Tədbirdə gənc rəssamlar Heydər Əliyev parkının mənzərələrini kağız və kətan üzərinə köçürüblər.

# Musiqisi Səid Rüstəmovundur

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Səid Rüstəmovun (1907-1983) əsərlərindən ibarət konsert proqramı keçirilib.



Gecədə Xəyal Qəhrəmanovun bədii rəhbərliyi və baş dirijorluğu, Xalq çalğı alətləri ansamblının müşayiəti ilə Xalq artisti Sevinc İbrahimova, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Əməkdar artistlər Tural Abdullayev, Mahir Məmmədov, solistlər Azər Verdiyev, Fuad Ramazanov, Samirə Hacıyeva, Zəminə Mustafayeva, Xəyal Əliyev, Rüstəm Cəfərov çıxış ediblər.

Proqramda bəstəkarın “Durna” operettasından Lalənin mahnısı, “Hardasan?”, “Getmə”, “Həkim qız”, “Haralısan?”, “Şeir deyilmi”, “İntizar”, “Qurban adına”, “Alagöz”, “Bilmədim”, “Gəlmədin”, “Oxu, gözəl” əsərləri ifa olunub.

Konsert tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# “Xalqın mədəni sərvəti” ustad xanəndəyə həsr edilib

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə “Xalqın mədəni sərvəti” layihəsini təqdim edir. 1-3 oktyabr tarixlərini əhatə edən layihə bu dəfə Azərbaycan xanəndəlik məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Seyid Şuşinskiyə (1889–1965) həsr olunub.

Layihə çərçivəsində Gəncə-Daşkəsən RMİ-nin tabeliyində fəaliyyət göstərən musiqi məktəblərində, Gəncə Dövlət Filarmoniyasında konsert proqramları keçiriləcək.

Xatırladaq ki, “Xalqın mədəni sərvəti” layihəsi bundan öncə Fikrət Əmirov (8-14 yanvar), Qara Qarayev (14-16 fevral), Cabbar Qaryağdıoğlu (27-29 mart) və Süleyman Ələsgərova (15-20 aprel) həsr olunmuşdu.

# Azərbaycan rəssamlarının abstrakt incəsənət təcrübəsi

## Muzey Mərkəzinin qalereyasında sərgi

Sentyabrın 26-da Muzey Mərkəzinin qalereyasında "Azərbaycan rəssamlarının abstrakt incəsənət təcrübəsi" adlı sərgi açıldı. Sərgi Azərbaycan Rəssamlar İttifaqının (ARİ) təşkilatçılığı, Mədəniyyət Nazirliyi və Muzey Mərkəzinin dəstəyi ilə ərsəyə gəlib.

Qonaqları salamlayan ARİ-nin sədri Xalq rəssamı Fərhad Xəlilov mərasimə qatılan Milli Məclisin Mədəniyyət komitəsinin sədri Xalq artisti Polad Bülbüloğlunu millət vəkili və komitə sədri seçilməsi münasibətilə təbrik etdi.

Fərhad Xəlilov diqqətə çatdırdı ki, sərgi ARİ və Beynəlxalq Rəssamlar Klubu tərəfindən təşkil edilən "Xəzər" Biennalesi platformasının proqramını açır və uzunillik fasilədən sonra bərpa edilən biennale region üçün əhəmiyyətli bir mədəni hadisə olacaq. 28 sentyabr – 15 oktyabr tarixlərini əhatə edən biennale çərçivəsində sərgilər, dəyirmi masa və müzakirələr keçiriləcək.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu bildirdi ki, zəngin rəssamlıq məktəbi ənənələrimiz sayəsində Qərbdə başlanan abstrakt rəssamlıq Azərbaycanda daha çevik təşəkkül taparaq inkişaf edib. Bu gün təşkil edilən sərgi gənc rəssamlar üçün də bir təkandır.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov Azərbaycan rəssamlıq sənətinin dünyada tanınmasından, məşhur fırça ustalarımızın ölkəmizin mədəniyyətini bütün dünyada layiqincə təbliğ etmələrindən söz açdı.

Sərginin mövzusu barədə ətraflı danışan rəssam Elçin Şamilli dedi ki, XX-XXI əsrlər Azərbaycan müasir incəsənəti bir neçə aparıcı istiqamət üzrə təmsil olunur. İlk növbədə, bu, Tahir Salahov, Mikayıl Abdullayev və bir çox digər ustadların yaradıcılığında realizmdir. Digər mühüm istiqamət Tofiq Cavadov, Rasim Babayev və onların həmfikirlərinin əsərlərində özünü göstərən "Abşeron məktəbi"dir. Üçüncü istiqamət isə Qorxmaz Əfəndiyev, Əşrəf Murad, Cavad Mircavadov və digər nonkonformistlərin yaradıcılığında təcəssüm olunan avanqard (qeyri-rəsmi incəsənət) cərəyanıdır.





Bu istiqamətlər sənətşünaslar və ekspertlər tərəfindən geniş şəkildə öyrənilib və təhlil edilib: "Abstrakt sənət Azərbaycan xalqının genetik kodundadır. Buna misal olaraq xalçalarımızı göstərə bilərik. Bu gün isə bu janr özünü müasir yanaşmada büruzə verir. Müasir abstraksiya Azərbaycanda avanqard fenomeni olaraq qəbul olunsa da, onun kökləri ənənəvi mədəniyyətimizdə dərin izlər buraxıb – xüsusilə, qədim xalça sənətində abstrakt həndəsi elementlər və naxışlar öz əksini tapıb. Xalçaların, palazların və kilimlərin quruluşu abstrakt həndəsi fiqurlara əsaslanır ki, bu da Azərbaycan xalqının öz mədəniyyətində çoxdan abstrakt düşüncəni və abstrakt vizual formalar yaratma təcrübəsini daşıdığını sübut edir".

Qeyd olundu ki, müasir Azərbaycan incəsənətinin əhəmiyyətli bir sahəsi olan müasir abstrakt incəsənət hələ də tam araşdırılmayıb. Bu sərgi yerli abstrakt incəsənətin təbliği və öyrənilməsinə töhfə verə bilər.

Çıxışlardan sonra qonaqlar sərgi ilə tanış oldular. Sərgidə həm yaşlı, həm də gənc nəsil rəssamların işləri nümayiş olunur. Yaradıcılığı tamamilə abstraksiyaya həsr olunmuş rəssamlar Mir Nadir Zeynalov və Hüseyn Haqverdi ilə yanaşı, başqa üslublarda çalışan, lakin abstrakt incəsənət sahəsində eksperimentlər aparan Kamal Əhməd, Gennadi Brijatyuk və Ucal Haqverdiyev kimi sənətkarların işlərinə yer verilib.

Sərgidə rəssamlar Elçin Aslanov və Ramiz Aslanov tərəfindən yaradılan xalça formaları və ənənəvi miniatür sənətinin müasir interpretasiyasının sintezi də diqqət çəkir.

Qeyd edək ki, "Azərbaycan rəssamlarının abstrakt incəsənət təcrübəsi" sərgisi sentyabrın 30-da başa çatıb.

**Lalə**

# Xalçaçı rəssamın "Qarabağ naxışları" sərgisindən təəssürat

Bakıdakı Rus Evində tanınmış xalçaçı rəssam, Azərbaycan Rəssamlar İttifaqının və Xalçaçılar Cəmiyyətinin idarə heyətinin üzvü Eldar Hacıyevin "Qarabağ naxışları" adlı sərgisi açılıb.

Sentyabrın 24-də gerçəkləşən açılış mərasimində iştirak edə bilməsəm də, bu günlərdə sərgini ziyarət etdim. Sözün əsl mənasında, nağıllar aləmini xatırladan bir sərgi...

Müxtəlif mövzulu xalçaların əks olunduğu sərgidə rəssamın yaratdığı füsunkar sənət incilərini ilə tanış oluruq. Rəssam hər bir sənət nümunəsində mükəmməl xalça miniatürlərinin uğurlu sintezini yarada bilib. Bu nümunələrdə xalça və miniatür sənətinin bütün atributlarının mükəmməl nümayişini hiss edirik.

Rəssam sənət dünyasında Nizami Gəncəvinin əsərlərinə, "Bibliya" motivləri və Qarabağ xalçaları ornamentlərinə üstünlük verib. Onu da qeyd edim ki, müəllifin xalçaları ipək saplarla toxuması sənətinin əsas özəlliklərindən hesab olunur.



20-dən çox əsərin sərgiləndiyi ekspozisiyadakı hər bir xalçada necə mürəkkəb, uzun yaranış prosesi, sənətkar gözünün nuru, xalçaçı rəssam əməyinin izləri var. Eldar Hacıyevin eskizləri üzrə toxunan xalçalar öz unikallığı ilə həm də ona görə seçilir ki, bu xalçalarda mədəni irsimiz, tariximizdən səhifələr, Qarabağın təbii sərvət nümunələri, ornamentləri əks olunub. Hər bir xalça sanki bir nağıldır, bir dastandır. Əlvan, şux rənglərlə təqdim olunan Azərbaycan təbiəti, milli bayramların simvolları və s. rəssamın yaradıcılığının əsas komponentlərindəndir. Mürəkkəb süjetlərin çoxrəngli keçidlərə malik kolorit xüsusiyyətləri, xalçalar üzərində verilən memarlıq abidələri, ayrıayrı personajların geyimlərinin bədii tərtibatı rəssamın Azərbaycan tarixinə dərindən bələdliyini, milli ənənələrə, etnoqrafiyaya maraq göstərdiyini sübut edir.

Sərgidə təkcə nəfis xalçalar deyil, həmçinin rəngkarlıq nümunələri nümayiş etdirilir.

Məkan baxımından Bakıdakı Rus Evinin seçilməsi heç də təsadüfi deyil. Müəllifin "Məhəmməd peyğəmbərin meracı", "İsa peyğəmbərin həyatı", "Ana Məryəm", "Vladimir ikonası", "Bibliya" tarixi adlı xalçaları ölkəmizin multikultural mühitinin təsvirləridir.

Bir sözlə, sərgi orijinal mövzuları ilə seçilən, parlaq rənglərlə zəngin, harmoniya saçan mədəni mühit vəd edir. İnanıram ki, sərgini izləyən hər bir ziyarətçi yüksək sənətlə ünsiyyətdən müsbət emosiyalar qazanacaq.

Şəhərimizin qonaqları və paytaxt sakinləri Eldar Hacıyevin sənət dünyası ilə oktyabrın 9-na kimi tanışlıq imkanı əldə edə biləcəklər.

Eldar Rasim oğlu Hacıyev 1962-ci ildə Bakıda anadan olub. 1984-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu (indiki ADMİU) xalçaçı rəssam ixtisası ilə başa vurub. Ali məktəbdə oxuduğu zaman və sonrakı illərdə xalça irsinin böyük bilicisi Lətif Kərimov, sənətşünaslıq doktoru, professor Kübra Əliyeva, Cəfər Mücīri, Xalq rəssamı Nadir Əbdürrəhmanovdan xalçaçılıq və rəngkarlıq sənətinin sirlərini öyrənib.

Rəssam 2013-cü ildə Heydər Əliyev Fondunun təşkilatçılığı və ölkəmizin Fransadakı səfirliyinin dəstəyi ilə Parisdəki Məktublar və Əlyazmalar Muzeyində Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş sərgidə, eləcə də Reyn şəhərində Məhsəti Gəncəvinin 900 illik yubileyi ilə əlaqədar sərgidə iştirak edib. 2016-cı ildə Vəcihə Səmədova adına sərgi salonunda "İlmələrin rəqsi" adlı fərdi sərgisi açılıb. Moskvada Ümumrusiya Dekorativ-Tətbiqi və Xalq Sənəti Muzeyində və bir sıra qalereyalarda sərgilərdə təmsil olunub.

**L.Azəri**

# Naxçıvan Dövlət Kukla Teatrının 35 yaşı qeyd olunub

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının yaradılmasının 35-ci ildönümü tamam olub. Sentyabrın 25-də bu münasibətlə tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları teatrın foyesində yubileyə həsr olunan kompozisiyanı izləyiblər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası (NMR) mədəniyyət nazirinin müavini Həsən Seyidov, Türkiyənin NMR-dəki baş konsulu Asip Kaya yaradıcı heyətə yeni yaradıcılıq uğurları arzulayıblar.





Teatrın direktoru və bədii rəhbəri Xalq artisti Şirzad Abutalıbov cari repertuar, kollektivin qastrol səfərləri, eləcə də maarifləndirmə xarakterli sosial-mədəni layihələr barədə məlumat verib.

Xalq artisti Kamran Quliyev, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi dosent Ələkbər Qasımov, NMR-in Əməkdar mədəniyyət işçisi Nadir Hüseynov və başqaları Naxçıvanın mədəni mühitində özünəməxsus yeri olan sənət ocağının yaradıcılıq yolundan danışıblar.

Çıxışlardan sonra Aleksey Tolstoyun "Qızıl açar, yaxud Buratinonun macəraları" əsəri əsasında hazırlanan "Buratino" tamaşası nümayiş olunub.

Xatırladaq ki, Azərbaycan SSR Nazirlər Sovetinin 14 sentyabr 1989-cu il tarixli qərarı ilə yaradılan teatr əvvəlcə Naxçıvan Dövlət Filarmoniyasının binasında yerləşib. 2004-cü ildə bina ilə təmin olunan teatr həmin ildən görkəmli maarifçi, pedaqoq, şair Məhəmməd Tağı Sidqinin (1854–1903) adını daşıyır.

# Kinomuzun problemlərini birgə səylərlə həll etməliyik

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) idarə heyəti ölkədə kino sahəsinin inkişafı və qarşıda duran problemlərin həlli üçün birgə səylərin vacibliyini vurğulayan bəyanat yayıb.

AKİ idarə heyətinin sentyabrın 26-da keçirilən iclasında qəbul edilən bəyanatda deyilir ki, ittifaq "Azərbaycanfilm" kinostudiyasının kino istehsalı sahəsində flaqman statusunun saxlanılmasını, studiyada istehsalın bərpa edilməsini vacib sayır. Qeyd olunur ki, həm "Azərbaycanfilm"in, həm də özəl studiyaların fəaliyyətinin inkişafı üçün 1998-ci ildə qəbul edilmiş "Kino haqqında" qanun və Nazirlər Kabinetinin müvafiq normativ aktları günün tələblərinə uyğunlaşdırılmalıdır.

"AKİ Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin türk dövlətlərinin birgə kino istehsalı istiqamətində atdığı addımları dəstəkləyir və "Molla Nəsrəddin" tammetrajlı bədii filminin maliyyələşdirilməsini və istehsalına şəraitin yaradılmasını müsbət addım kimi qeyd edir, layihənin uğurla reallaşması üçün bütün dəstəyin göstərilməsini vacib sayır. Türk respublikaları ilə birgə istehsalın davamı kimi bir neçə ildir aidiyyəti orqanlara təqdim edilmiş Xalq yazıçısı Anarın "Dədə Qorqud" ssenarisinin kinomuzun beynəlxalq əlaqələrinin formalaşması və gənc nəslin milli ruhda tərbiyəsi üçün mühüm bir layihə olduğunu vurğulamaqla, ekranlaşdırılmasını vacib hesab edirik", – deyə bəyanatda daha sonra bildirilir.

Prezident İlham Əliyevin sərəncamı ilə Mədəniyyət Nazirliyinin tabeliyində Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) yaradılmasını idarəçilik institutu olaraq təqdir edən AKİ, bununla yanaşı, agentliyin nizamnaməsində təsbit olunmuş strukturların tam formalaşmasının vacibliyini vurğulayır. Agentliyin tələbə filmlərinin maliyyələşdirilməsi təşəbbüsü müsbət hal kimi qeyd edilir. Bildirilir ki, xüsusilə layihə və ssenari müsabiqələrinin ildə iki dəfədən az olmayaraq keçirilməsi təmin edilməli, kadr seçimində kino təcrübəsi və kino təhsili olan mütəxəssislərə üstünlük verilməlidir.

Türk respublikaları, Avropa ölkələri ilə birgə istehsalatın dəstəklənməsi, ölkəmizdə film istehsalı həcminin pandemiyaya qədərki göstəriciləri səviyyəsində bərpa olunmasını vacib sayan AKİ aidiyyəti orqanları kino zallarının sayının artırılması istiqamətində investisiyaları dəstəkləməyə çağırır.

Bəyanatda kino tariximizin qızıl illərinin kinematoqrafçılarla ədəbiyyatımızın sıx əlaqədə olduğu diqqətə çatdırılaraq, bu əlaqələrin bərpası və inkişaf etdirilməsi üçün yaradıcı ittifaqların və Mədəniyyət Nazirliyinin birgə işinin vacibliyi vurğulanır. Bununla yanaşı, AKİ özəl investisiyaların kinomuza axınını təmin etmək üçün İqtisadiyyat Nazirliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə "Biznes və kino" forumunun təşkili təşəbbüsünü irəli sürür.

# Qalib bəstəkarların konserti

## 16-cı Üzeyir Hacıbəyli festivalının son akkordu



Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-28 sentyabr tarixlərində keçirilən Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının son günü də maraqlı konsertlə yadda qaldı. Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında ABŞ-da yaşayan soydaşımız – pianoçu, musiqişünas Nərgiz Əliyarovanın rəhbərlik etdiyi Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti (National Music & Global Culture Society) tərəfindən keçirilmiş IV Beynəlxalq Bəstəkarlıq Müsabiqəsinin yekun konserti oldu.

Qeyd edək ki, müsabiqənin rəhbəri professor Nərgiz Əliyarova qalibləri sentyabrın 18-də, Üzeyir Hacıbəylinin doğum günü – Milli Musiqi Günündə elan etmişdi. Amerikalı bəstəkar Kian Ravai müsabiqənin qalibi olub. 2-ci yeri Ceyhun Allahverdiyev (Azərbaycan), 3-cü yeri Xuanxo Villaroya (İspaniya) tutub. Bundan əlavə, Kozimo Bombardyeri (İtaliya), Sina Cafarikia (İran), Maykl Tan (Kanada), Ben Yi-Paulson (ABŞ), Rüfət Xəlilov (Azərbaycan), Cared Destro (ABŞ), Braça Bdil (İsrail) müsabiqənin diplomlarına layiq görülüblər.

Müsabiqənin münsiflər heyətində Nyu-Yorkdakı Culyard Məktəbi Bəstəkarlıq kafedrasının müdiri Melinda Vaqner (sədr), Azərbaycan Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi Cəlal Abbasov, Şimali Texas Universiteti Musiqi kompozisiyası kafedrasının dosenti Sunci Qonq yer alıblar. Bu il müsabiqədə 22 ölkənin nümayəndəsi iştirak edib.

Nərgiz Əliyarova bildirib ki, budəfəki müsabiqə Azərbaycan xalq mahnılarına həsr olunub. Məqsəd plagiata məruz qalmış xalq mahnılarımızın Azərbaycan mədəniyyətinə məxsusluğunun dünya musiqi ictimaiyyətinə çatdırılması və təbliğidir. Müsabiqənin rəhbəri layihəyə dəstək verdiyi üçün Diasporla İş üzrə Dövlət Komitəsinə, eləcə də laureatların əsərlərinin Üzeyir Hacıbəyli festivalı çərçivəsində təqdimatına şərait yaratdığına görə Mədəniyyət Nazirliyinə təşəkkür edib.

Onu da əlavə edək ki, müsabiqənin qala-konserti noyabrın 8-də Nyu-York şəhərində, Linkoln Mərkəzində olacaq.

Üzeyir Hacıbəyli festivalındakı konsertdən öncə çıxış edən müsabiqənin münsiflər heyətinin üzvü Cəlal Abbasovun qeyd etdiyi kimi, müsabiqə bu dəfə də yeni adların kəşfi, artıq tanınan adların yeni istedadlarının üzə çıxması baxımından əlamətdar sənət hadisəsinə çevrilib.

Konsert proqramının birinci hissəsi sözügedən müsabiqənin qalib bəstəkarların əsərlərinin ifası, ikinci hissəsi isə bəstəkar və xalq musiqi yaradıcılığı nümunələrinin təqdimatından ibarət idi.

Əvvəlcə müsabiqənin 3-cüsü ispaniyalı musiqiçi Xuanxo Villarroyanın "Sevgilimin bağçası" əsərini "Cadenza" orkestrinin (bədii rəhbər Türkər Qasımzadə) üzvləri – klarnetdə Məhəmmədəli Paşazadə, pianoda Afaq Qarayeva və çelloda Georgi İmanov ifa etdilər. Əsər qədərində ehtirаslı və həzinliyi ilə musiqisevərlərdə xoş təəssürat oyatdı.

İkinci yer laureatı Ceyhun Allahverdiyevin "Rəqs" fantaziyası təkrarsız Azərbaycan rəqs musiqisinin yeni gözəl ritmlər tablosunu yaratdı. Əsəri pianoda Afaq Qarayeva, violinodə Nadir Eyvazov və Aynur Əhədova, violada İlqar Rzayev, çelloda Asim Xəlilov şövq və ustalıqla ifa etdilər.

Müsabiqənin birinci yer laureatı amerikalı bəstəkar Kian Ravainin "Sarı gəlin və çöl ağacının çiçəyi" əsərini violonçeldə Georgi İmanovun və pianoda Afaq Qarayevanın müşayiəti ilə Əməkdar artist Fəridə Məmmədova ifa etdi. İstedadlı vokalçı növbəti dəfə müstəsna səs və ifa imkanları, artistizm keyfiyyətləri ilə heyrətləndirməyi bacardı.

"Sarı gəlin və çöl ağacı çiçəyi" əsəri növbəli şəkildə Azərbaycan və ingilis dillərində yazılıb. Əsərin hər iki dildə olan hissələri təsir qüvvəsinə görə biri digərinə uduzmadı. Bu isə bəstəkarın musiqimizə bələdliyi, ehtiramı, məsuliyyəti və istedadından xəbər verir. Bu cəhətlərə ifaçıların da müvafiq yanaşmaları əlavə edilində "Sarı gəlin" amerikasayağı ingiliscə mətn və musiqi daxilində ecazkarlığını yeniləmiş oldu.

Konsertin ikinci hissəsində "Bayatı-Şiraz" təsniflərini Vəfa Vəzirova səliqə və özünəməxsus ustalıqla ifa etdi. Orxan Əlizadənin ifasında sözləri Xan Şuşinskiyə aid olan "Şuşanın dağları" mahnısı, pianoçu Aytən Şahbazlının ifasında Hacıbaba Əliyevin iki prelüdü, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupunun təqdimatında "Basma-basma tağları", "Bağa girdim üzümə", "Girdim yarın bağçasına" Azərbaycan xalq mahnıları ifa olundu.

İfalar başa çatandan sonra bir-birilə təəssüratını bölüşən dinləyicilər arasında konsertin belə tez bitməsinə heyfsilənənlər az deyildi...

**Samirə Behbudqızı**

№73 (2138)
2 oktyabr 2024
www.medeniyyet.az

## İkinci planda

Yeni rubrikanın simaları səhnədə və ekranda ön planda, baş rolda oynamasalar da, Azərbaycan teatr və kino sənətində özünəməxsus iz qoymuş sənət xadimləri olacaq. Müsahibə və portret yazılarda onları ön plana çıxaracaq, sənətə həsr etdikləri ömürlərinə nəzər salacağıq.

# "Baş rol nisgilim yoxdur"

"Zamanında çoxlarının həsəd apardığı qəhrəman obrazlarım olub. Sevinirəm ki, onda da, indi də hörmət, sevgi görmüşəm..."

"Ömrə etibar yoxdur" deyə-deyə yaşayır, yaşlanırıq. Amma həyat sevgimiz, ümidlərimiz, bütün çətinliklərə rəğmən mübarizə əzmimiz tükənmir. Niyə? Etibarsız dediyimiz dünyada özümüzdən sonra iz qoymaq üçün. Bu məqam haqında düşünəndə ilk ağlıma gələn sənət adamları olur. Hərdən inkar etsələr də, onların çoxunun, məncə, mütləq əksəriyyətinin həyat devizi məhz budur: yaddaşlarda qalmaq.

Görüşünə həvəslə getdiyim zərif qadın, maraqlı insan və istedadlı aktrisa Qəmər Məmmədova ilə söhbətimizdə bu nüans hərəkətverici amil oldu.

Qısa təqdimat üçün deyim ki, Qəmər Məmmədova 10 sentyabr 1954-cü ildə Bakıda doğulub. 1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Dram və kino aktyorluğu fakültəsini bitirib. 1975–79-cu illərdə Şəki Dövlət Dram Teatrında, 1979-cu ildən İncəsənət İnstitutunun nəzdindəki "Tədris" teatrında çalışıb. 1983-cü ildə Şəki teatrına qayıdıb. 2002-ci ildən yenə paytaxtda, Azərbaycan Dövlət Gənclər Teatrında çalışıb. 2009-cu ildə bu teatr Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrına birləşdirilib. O vaxtdan bu teatrın aktrisasıdır. ADMİU-da müəllim kimi də çalışıb, bir müddət kafedra müdiri olub. 2000-ci ildə "Əməkdar artist", 2013-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülüb.

*– Bu da əlahəzrət 70. Daha çox inanırsız, yoxsa inandırırsız?*

– (Gülür) Düzü, nə inanmıram, nə də inandırmıram. Heç siz də üzərində çox dayanmayın. Çünki duyğularım da, düşüncələrim də 25 yaşındadır. Amma zaman da özünü göstərir, yaş da.

*– Yəqin ömür tez keçdi?*

– Vallah, vərəqləyəndə hərdən düşünürsən ki, yox, nə qədər hadisələr, acılı-şirinli günlər, həyatımda dönüş nöqtəsi dediyim məqamlar çox olub. Amma yenə də tez keçdi. Lap göz qırpımında.

*– Sənət yolunuz fasiləsiz oldu. Sizi Şəkiyə aparan yoldan başlayaq.*

– Rəhmətlik Hüseynağa Atakişiyev mənim tələbə yoldaşım idi. Bir kursda oxumuşuq. Həmin kursu bitirənlər, demək olar ki, hamımız Şəkiyə getdik. Məni səhnə danışığından dərs demək üçün universitetdə saxlamaq istəyirdilər. Amma qalmadım. Ümumən bu, çox gözəl ənənə idi. Bölgə teatrlarının yenidən qurulması üçün ən yaxşı üsul. Beləliklə, mən də Şəkiyə getdim. Çünki mənə səhnə lazım idi. İllər sonra ADMİU-ya qayıtdım və anladım ki, zamanında düz edib teatra getmişəm.

*– Niyə, pedaqoqluq böyük sənətə mane olur?*

– O da var. Amma prosesdə, səhnədə olmalısan. Qısacası, aktyor teatrda formalaşır.

*– Deməli, Şəki teatr mühitində öyrəndikləriniz də çox olub...*

– Əlbəttə. Hərçənd oradakı truppa, demək olar ki, elə bizdən ibarət idi. Qalanların əksəriyyəti həvəskarlar idi. Amma yenə də bu teatr mənə çox şey öyrətdi. Sanki teatrı öz əllərimizlə qurduq. Həmin özül o qədər möhkəm quruldu ki, indi də orada o təməl prinsiplərə xidmət davam edir.

*– Kim idi o özülün banisi?*

– Rəhmətlik Vaqif Abbasov və Hüseynağa Atakişiyev. Hər ikisi o teatr üçün nəhəng simalar idi. Mənim oradan getməyim, bayaq dediyiniz qısa fasilə də bura – Bakıya gəlib "Tədris" teatrında çalışmağımla bağlı oldu.

*– Maraqlıdır, mən də elə bildim ailə qurduqdan sonra teatrdan müvəqqəti uzaqlaşmısınız.*

– Yox, rəhmətlik həyat yoldaşım sənətimə mane olmadı. Sənəti sevirdi. Hətta övladım çox körpə olanda da səhnədən qopmadım. Belə bir temp vardı onda. Özü də təkcə məndə yox, elə truppanın hamısında.

*– Onda bu get-gəl nə ilə bağlı idi?*

– Mən bir az başqa xasiyyətdəyəm. Nəyəsə öyrəşəndə çətin ayrılıram. Bura gəldim, yaxşı da işləyirdim. Rəhmətlik Vaqif İbrahimoğlu idi rejissorumuz. Yaxşı rollarım vardı. Mən danışıram 70-ci illərin sonları, 80-ci illərin əvvəllərindən. Sonra gördüm ki, yox, mən qayıtmalıyam.

*– Kim çağırdı sizi ora?*

– Ürəyim (gülür). Özüm burada olsam da ruhum Şəkidə qalmışdı. Özümü narahat hiss etdim və ora qayıdaraq yenidən daxili səadətimi tapdım.

*– Deyəsən, elə indi də ürəyiniz Şəki teatrındadır.*

– Hə, vallah. Mən heç gəlməzdim də. Sadəcə, oğluma görə seçim etmək məcburiyyəti yarandı. 1996-cı ildə yoldaşım dünyasını dəyişdi. Birinci Qarabağ müharibəsi iştirakçısı



idi. Savaşın fiziki və mənəvi yaraları ilə uzun yaşaya bilmədi. Oğlum idmanı seçdi. Bir gün Şəkidəki müəllimləri oğlumun Bakıdakı basketbol yığma komandasına seçildiyi xəbərini verdilər. Onların israrı ilə oğlumu bura göndərdim. Bir il bacım evində qaldı. Gördüm ki, yox, ondan ayrı da çətindir. Könülsüz də olsa, Bakıya qayıtdım. Uzun illər kirayədə qaldım. Ana-bala baş-başa verib yaşadıq. Oğlum böyüdü, sahəsində nailiyyətlər əldə etdi. Ötən ay məşqçisi olduğu komanda çempion oldu və beləcə, Fərid Əmirovun anası olaraq məni daim qürurlandırdı.

*– Öz eviniz də oldu?*

– Oldu, sağ olsun dövlət başçısı, bizə ev də verdi.

*– "Əməkdar artist" fəxri adınızın vardı. Bir də Əməkdar incəsənət xadimi ilə təltif olundunuz. Təltif baxımından diqqətdə olmusunuz.*

– Sağ olsunlar, zəhmətimi unutmayıblar. İkinci fəxri adı ADMİU-nun 90 illiyində aldım. Fəal müəllim, kafedra müdiri kimi təltif olundum. Mən az qala işdə yatıb qalan adamdım. Universitetə səhər girdiyimi görürdülər, bir də axşam çıxırdım. Təbiətim belədir. Nə iş görürəmsə, ona dəlicəsinə bağlanıram və ən yaxşısına çalışıram.

*– Amma arxa planda qalmağı sevirsiniz. Ya da mənə elə gəlir. Haqqınızda dövri mətbuatda bir yazıya, müsahibəyə rast gəlmədim.*

– Doğru araşdırmısınız. Yoxdur. Deyəsən, bu barədə özüm tənbələm (gülür). Teatrşünasların, jurnalistlərin diqqətini cəlb etmək üçün canfəşanlıq mənə yaddır. Nə bilim, həmişə "İşlə, Qəmər, görən görəcək, istəməyən görməyəcək" demişəm. Amma indi baxıram ki, düz deyirsiz. "Özləri görürlər də" dediyim məsələdə yanıldım. İndi də yaş o yaş deyil. Mən prosesi çox sevmişəm, səhərdən axşamadək teatrda olmuşam. Oğlum kulisdə, qrim otağında, geyim sexində böyüyüb. Axı teatr mənsiz ölərdi.

*– Elə hesab edirdiniz, yoxsa elə idi?*



– Məncə, elə idi. Çünki bütün qəhrəmanlar mənim idi. Bilirsiniz, truppanın əsas rol ifaçısı olmaq həm də çətin idi. Amma yorulmurdum. Orada yaxşı teatr mühiti vardı. Elə indi də. Təəssüf ki, yeni nəsil getmir, onlar da həvəskarların ümidinə qalıblar əsasən. Elə pis oluram ki. Axı orada da tamaşaçı, sənət mühiti var. İndi bölgə teatrlarına getmək istəməyən gənclər şəraitdən gileylənirlər. O da zamanla düzələr. Elə bilirsiniz, bizlər gedəndə hər şey əla idi. Əziz gənclər, gedin, özünüzü orada sınayın. Nə bilmək olar, bəlkə müvəqqəti gedişiniz daimi olar, qalar, sevərsiniz bölgə teatrlarını. Arada məcburi təyinatın ləğv olunmasına görə çox təəssüflənirəm. Belə başa düşürəm ki, bölgə teatrlarının dirçəlməsi üçün bu metoda qayıdılmalıdır.

*– Sizin aktyor potensialınızı daha çox hansı rejissor üzə çıxardı?*

– Elə Hüseynağa Atakişiyev, bir də rəhmətlik Mərdan Feyzullayev. Biz, ümumiyyətlə, teatr tərbiyəsi almış nəsil kimi peşəkar və ya həvəskar bölgüsü etməmişik. Rejissorlara etibar edərək, ümumi işin ən yaxşı səviyyədə ərsəyə gəlməsi üçün hər zaman əlimizdən gələni etmişik.

*– Nə idi o teatr tərbiyəsi?*

– Fədailik, məsuliyyət, sənətə sədaqət. Başını aşağı salıb işinlə məşğul olmaq, sözbazlığa baş qoşmadan çalışmaqdır.

*– Aldığınız sənət tərbiyəsindən çıxış edərək soruşuram: prosesə baxanda indi yaradıcı potensial zəifdir, yoxsa maddi-texniki baza?*

– Fədailik çatışmır. Çünki dağınıqlıq çoxdur. İndi kimisə qınamaq da olmur. Qısacası, öyrənmək, öyrətmək istənilən zaman, nəsil getdi, yoxdur!

*– Bu sizi yormur?*

– Kədərləndirir, həvəsi azaldır. Amma heç nə də edə bilmirəm. Əslində, indi həyatın öz səhnəsində dağınıqlıq o qədər artıb ki, bu səhnəyə də sirayət edib.

*– Bu sənət həm də ona görə çətindir ki, sən mütləq şəkildə özünü isbat etməlisən. İsbat üçün 70 il bəs deyil?*

– Gəlin, sizə düzünü deyim də. Mən artıq heç kimə heç nəyi isbat eləmək istəmirəm. Nə, necə eləmişəmsə, eləmişəm artıq.

*– Aktrisa kimi sizin üçün rejissorun savadı, istedadı, eləcə də texniki imkanlar nə dərəcədə vacibdir və bu meyarlara adekvat olmayanlarla məşq çətin olur?*

– Özü də necə (gülür). Çətin sual oldu. Bəzən peşəkar aktyorsunuz, obraza özünüz yol tapın deyirlər. Amma bu, belə olmamalıdır. Rejissor xətti, aktyorun ifadəsində rejissorun işi görünmürsə, burada tamamlanmış işdən danışmaq çətindir. Aktyor oyununu analiz edəndən sonra daim nə deyirlər? "Rejissor tablosu yaxşı tamamlanıb". Bunu aktyor yox, məhz rejissor müəyyən edir.

*– Deməli, siz də rol böhranı yaşamışınız?*

– Bəli. O zamanlarda məni universitet xilas elədi. Başım orada qarışdı. Yoxsa bu böhran məni çox dərinə aparardı. Ola bilər bu da mənim günahımdır. Universitetdə yox, bütünlükdə teatrda qalsaydım rejissorların diqqət mərkəzində olardım, çox rollar oynayardım.

*– Yəni kütləvi tamaşaçının sizi tanımamağının bir günahı da öz boynunuzdadır.*

– Olsun elə. Amma bununla da tam razı deyiləm. Axı kütləvi tamaşaçı bizi televiziyadan tanıyır. Yadınıza salın, teatrda elə nəhəng aktyorlar olub ki, kinoya, teletamaşalara çəkilməyiblər deyə, tanınmayıblar. Amma indi adi serialda oynayan, hansısa aidiyyəti olmayan sosial verilişdə belə iştirak edən "tanınır". Mənə elə tanınmaq da lazım deyil.

*– Seriallara getmirsiniz?*

– Xeyr. Amma "O dünyadan salam", "Həm ziyarət, həm ticarət", "Yalan", "Cavad xan" filmlərində çəkilmişəm.

*– Son olaraq teatrda sizi "Kod adı – V.X.A" tamaşasında Umgülsüm Sadıqzadə rolunda görmüşəm...*

– "Tanrıya 14 məktub"da Roza nənə, "Leyli və Məcnun"da Qarı, "Şeyx Sənan"da Nina, "Oqtay Eloğlu"da Gülgəz kimi və bunlardan da savayı çoxlu rollarım var. Rejissorlarımız hansı rolu verirlərsə, sevə-sevə oynayıram.

*– Qəmər xanım, bir vaxtların birinci plan oyunundan arxa plana keçid sizi incitmir?*

– Ağrıdır (kövrəlir, bir az pauza verir, sonra qəhərini qovmaq üçün gülür. Bu an hiss edirəm ki, o, iki ovqat arasında da oynamır. Necə varsa, özüdür. Nəhayət, bütün söhbət boyu olduğundan daha nikbin ovqata köklənib davam edir)... Eh, heç bilmirəm bunların hamısını qəzetdə verərsiniz, yoxsa yox. Gəlin, yaxşı şeyləri yazaq və bu da "mənim günahımdır" deyib keçək. Hə-hə, mənim günahım. Mübarizə aparmıram, rol davası etmirəm. İşləmək istəyirəm, amma özünü ortaya atmıram. Heç vaxt "mən-mən" demirəm. Deyə bilmirəm. Ən əsası, baş rol nisgilim yoxdur. Zamanında çoxlarının həsəd apardığı qəhrəman obrazlarım olub. Sevinirəm ki, onda da, indi də, orada da, burada da daim hörmət, sevgi görmüşəm...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**



Sentyabrın 26-da Azərbaycan peşəkar vokal sənətinin banisi, SSRİ Xalq artisti Bülbülün (Murtuza Məmmədov; 1897–1961) vəfatının 63-cü ildönümü tamam oldu. Ecazkar səsi, şaqraq zəngulələri ilə hər kəsi heyran qoyan, bülbülləri susduran və buna görə də xalq tərəfindən Bülbül adlandırılan sənətkarın xatirəsini onun memorial muzeyində yad etdik...

# Bu məkanda sanki Bülbülün səsi hələ də eşidilir...

Muzeyin direktoru Fərqanə Cabbarova bizi səmimi qarşılayır. Direktor əvvəlcə muzeyin tarixi haqqında məlumat verir. Deyir ki, muzey Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə yaradılıb. 1982-ci il iyunun 10-da muzeyin təntənəli açılışı olub. Ulu öndər Heydər Əliyev açılış mərasimində iştirak edib. Muzey sahəsi 75 kvadratmetr olan 4 ekspozisiya otağından ibarətdir. Üç otaq memorial olaraq saxlanılıb, biri sərgi otağıdır. Bu mənzildə Bülbül 1937-ci ildən ömrünün son günlərinədək, yəni 1961-ci il sentyabrın 26-dək yaşayıb-yaradıb. Muzeyin fondlarında olan zəngin eksponatlar Bülbülün yarım əsrdən çox öz parlaq istedadını Azərbaycan musiqi sənətinə həsr etməsini inandırıcı surətdə göstərir. Burada müğənninin yaradıcı, elmi-tədqiqi, pedaqoji, ictimai fəaliyyəti, Azərbaycan musiqinin bütün sahələrinə aid 9000-ə yaxın material toplanıb.

### Şuşadakı evin maketi

Bülbülün ölməz simasını canlandıran, 1978-ci ildə heykəltaraş Aslan Rüstəmov tərəfindən yaradılan büst muzeyə gələnləri qarşılayır. Girişdə həmçinin fotostendlər nümayiş etdirilir.

Muzeyin divarları Bülbülün səsi ilə dolu olan bir zaman tunelini xatırladır. Burada sərgilənən fotoşəkillər onun həyatının parlaq anlarını canlandırır: gənc Bülbül konsert səhnələrində, tamaşaçıların alqışları arasında...

Fərqanə xanım deyir ki, Bülbül 1897-ci il iyunun 22-də Azərbaycanın musiqi, sənət beşiyi Şuşada dünyaya göz açıb və bu şəhərin ab-havası, sözlü-nəğməli, muğamla nəfəs alan mühiti onun sənətkarlığı üçün bəhrəli zəmin olub: bu gördüyünüz Bülbülün doğulduğu evin maketidir. İndi də muzey kimi fəaliyyət göstərir. 1983-cü il iyulun 29-da Bülbülün Şuşadakı Ev-Muzeyinin açılışı olub. Bu muzey də Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılıb. İşğala qədər muzeydə 400-ə yaxın eksponat qorunub saxlanılırdı. Təəssüflər olsun ki, işğal vaxtı muzeydən heç bir eksponatı çıxarmaq mümkün olmayıb. Vətən müharibəsindən qısa müddət sonra, 2021-ci ildə muzey fəaliyyətini yenidən bərpa edib. Muzeyin yenidən açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da iştirak ediblər. Həmin açılışdan şəkillər muzeydə nümayiş olunur. Onu da deyim ki, Bülbülün evinin həyətindəki o tut ağacı indi də qalmaqdadır. Balaca Murtuza həmin ağacda əyləşib bülbülləri təqlid edirdi. Ona görə xalq ona 8 yaşında ikən Bülbül adını verib".

Muzeyin birinci otağı – yataq otağındayıq. Bülbülün sağlığında olduğu kimi saxlanılmış otaqda sənətkara aid yataq mebeli, kostyumu, divarda ailəsi ilə fotoşəkilləri və görkəmli rəssam Nadir Əbdürrəhmanovun Şuşa mənzərəsi məkanı bəzəyir. Yataq mebeli Bülbülün gözəlliyə qiymət verən yüksək zövqünü göstərir. Mebel o vaxt Bülbül tərəfindən Almaniyadan gətizdirilib.

### Vətənə tələsən Bülbül...

Qonaq otağındakı eksponatlarla tanış oluruq. Bu guşənin əsas eksponatları Bülbülün yaradıcılıq həyatındakı dəyişikliklərdən bəhs edən sənədlərdən, ona həmkarları və dostları tərəfindən bağışlanmış hədiyyələrdən, sənətkara məxsus "WEINBACH" markalı royaldan, Bülbülün xaricdə çəkdirdiyi şəkillərdən ibarətdir.

Həmsöhbətim qeyd edir ki, muzeyi ziyarət edən qonaqların diqqətini ən çox cəlb edən eksponatlardan biri İtaliyada nəşr olunan məşhur musiqi jurnalı "Arte Nostra"nın nüsxəsidir. Dərginin 1931-ci ildə işıq üzü görən bir nömrəsində Bülbülün böyük portreti və onun haqqında məqalə dərc olunub. Məqalədə bu sözlər deyilirdi: "Müsəlman aləmindən olan ilk azərbaycanlı vokalçı Bülbül İtaliyaya təhsil almaq üçün gəlmiş və spesifik Şərq oxuma tərzindən Avropa oxuma məktəbinə keçmişdir. 4 illik təhsil geridə qalmışdır.



Maestro Qrani Bülbülün İtaliya tədris metodikası və italyan ifaçılıq məktəbini mükəmməl öyrənməsini etiraf etdikdən sonra Bülbül əldə etdiyi biliyi xalqa çatdırmaq, iki məktəbin sintezini həyata keçirmək üçün Vətənə tələsir. Belə bir sintezin mümkün olduğuna və parlaq nəticə verdiyinə Bülbülün öz yaradıcılığı çox gözəl sübutdur".

Bu otaqda vaxtilə bir sıra görkəmli yazıçı, şair və bəstəkarlar qonaq olub. Onlar üzərində ürək sözləri yazılmış şəkillərini, notlarını və kitablarını Bülbülə hədiyyə ediblər.

### "Eddison" fonoqrafı, "Becker" pianosu...

İndi isə muzeyin üçüncü – iş otağındayıq. Fərqanə xanım bildirir ki, məhz bu otaqda Bülbül yeni konsert proqramları hazırlayır, yeni obrazlarını məşq edir, Azərbaycan musiqisinin inkişafına dair yeni fikirlər irəli sürürdü. Burada Bülbül elmi məqalə və məruzələr yazır, elmi konfranslara, vokal müşavirələrinə hazırlaşır, Azərbaycan vokal sənəti nəzəriyyəsini işləyir, milli vokalçı kadrların təlimi üçün dərs vəsaitləri tərtib edirdi: "Bülbül 1932-ci ildə Elmi-Tədqiqat Musiqi Kabinetini (ETMK) yaradıb. Kabinetin əsas məqsədi Azərbaycanın rayonlarına səpələnmiş xalq mahnılarını toplamaq və notlara köçürmək idi. Kabinet tərəfindən 500-ə yaxın xalq mahnısı toplanaraq notlara köçürülüb. Həmin mahnılar bu gördüyünüz "Eddison" adlı fonoqraf vasitəsilə yazılırdı. Bu fonoqrafı Bülbül 1932-ci ildə indiki Sankt-Peterburq şəhərindən gətirib".

Otaqda diqqətçəkən eksponatlardan biri də "Becker" pianosudur. Piano XX əsrin 30-cu illərində hökumət tərəfindən Bülbülə bağışlanıb.

Otaqda həmçinin Bülbülün şəxsi kitabxanası da yerləşir. Burada 400-dən çox kitab qorunur. Muzeyin direktoru söyləyir ki, Bülbül dahi şair və mütəfəkkir Nizami Gəncəvini çox sevdiyindən şəxsi kitabxanasında onunla bağlı kitabları daha çox görmək olar.

Bundan başqa, iş otağında Bülbülün radiosu, ETMK-nın materialları, yazı stolu, Azərbaycan SSR Ali Sovetində deputatlıq fəaliyyəti haqqında sənəd və şəkillər, ictimai xadimlərin Bülbülə bağışladığı hədiyyələr nümayiş olunur.

***

Muzeyin sonuncu otağındayıq. Həmsöhbətim deyir ki, bura vaxtilə uşaq otağı olub, hazırda isə sərgi zalı kimi fəaliyyət göstərir. Otağın tematikası Bülbülün xalq xanəndəsindən professional vokal ustasına kimi keçdiyi böyük bir yaradıcılıq yolunun ifadəsidir.

Sərgi otağında 1920-ci ildə Bülbülün ilk dəfə Kərəm rolunda çıxış etdiyi "Əsli və Kərəm" muğam operasının afişa-proqramından tutmuş sənətkarın xatirəsini əbədiləşdirən vitrinə kimi xronoloji ardıcıllıqla tərtib edilib.

Bu otaqda həmçinin Bülbülün aldığı mükafatlar, fəxri fərmanlar, dəvət olunduğu dövlət əhəmiyyətli tədbirlər, çıxış etdiyi yubiley tədbirləri və rol aldığı opera tamaşalarından şəkillər, II Dünya müharibəsi dövrünə aid yaradıcılıq materialları, o cümlədən, Stalinin Bülbülə ünvanladığı iki təşəkkür teleqramı, deputat vəsiqələri və s. nümayiş olunur.

### "Bülbülün qonaqları"

Bu ilin əvvəlindən başlayaraq muzey tərəfindən "Bülbülün qonaqları" adlı layihə həyata keçirilir. Muzeyin direktoru bildirir ki, Bülbül çox qonaqpərvər insan olub. Hər gün, demək olar ki, onların evində məşhur insanlar qonaq olarmış: "Biz də düşündük ki, belə bir layihə həyata keçirsək, maraqla qarşılanar. Elə fikirləşdiyimiz kimi də oldu. Layihə bu ilin sonunadək davam edəcək".

Paytaxtın Xaqani küçəsi 43 ünvanında yerləşən muzey həftənin bütün günləri ziyarət üçün açıqdır. Muzeyə giriş ödənişsizdir.

Muzeydən xoş təəssüratla ayrılırıq və bu ocağın təkcə bir xatirə ünvanı deyil, eyni zamanda Azərbaycan musiqisinin zənginliyini canlandıran bir məkan olduğu yaddaşımıza yazılır. Burada sanki Bülbülün səsi hələ də eşidilir, o səs zamanın sınağından çıxaraq gələcək nəsillərin qəlbində yer tutmağa davam edir...

**Nurəddin Məmmədli**

# Akademik Milli Dram Teatrında "Sehrbazlar dərəsi"nə baxacağıq

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı əsasında eyniadlı tamaşanın oxunuş məşqlərinə başlanılıb.



Teatrın bədii rəhbəri Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə və yazıçı Kamal Abdulla tamaşanın yaradıcı heyəti ilə görüşüb, yeni işdə kollektivə uğurlar arzu ediblər.

Tamaşaya Əməkdar incəsənət xadimi Bəhram Osmanov quruluş verir. Quruluşçu rəssam Gennadi Skoromoxov, bəstəkar Xalq artisti Siyavuş Kərimi, səhnə hərəkəti və plastika üzrə mütəxəssis Bəhruz Əhmədli, işıq üzrə rəssam Rafael Həsənov, rejissor assistenti Ceyran Başarandır.

Səhnə əsərində Xalq artistləri Əli Nur, Kazım Abdullayev, Əməkdar artistlər Füzuli Hüseynov, Rövşən Kərimduxt, Mətanət Atakişiyeva, Kazım Həsənquliyev, aktyorlar Elnur Qədirov, İlahə Həsənova və Tural İbrahimov rol alıblar.

Kamal Abdullanın 2006-cı ildə nəşr olunan romanı oxucuların və ədəbiyyat tənqidçilərinin böyük marağına səbəb olub. Mistik əhvalatların baş verdiyi əsər paralel dünyalar arasındakı ahəngdən, atası Cəlladbaşını axtaran Karvanbaşının taleyin hökmü ilə Sehrbazlar dərəsinə gəlib çıxması və burada yaşamasından, Ağ dərvişin və hər iki dünyada yaşayan Səyyah sehrbazın çağırdığı ruhla Karvanbaşının faciə ilə bitən sirli görüşündən bəhs edir.

"İnsan həqiqəti öyrənməyə çox can atır, çox tələsir, amma unudur ki, bu yolun sonunda, mənzil başında onu fəlakət və bədbəxtlik də gözləyə bilər. Ümumiyyətlə, həqiqəti anlamaq istəyi nəyə gətirib çıxarır? İntiqam vacibdirmi?" deyən quruluşçu rejissor Bəhram Osmanov yeni səhnə işində bu qəbil suallara cavab axtardığını və mövzuya insan problemi kontekstində baxmağa çalışdığını bildirib.

# Müəmmalar haləsinə bürünən xanəndə ömrü

XIX əsr musiqi mədəniyyəti tariximizdə iz qoyan sənət adamlarından biri də xanəndə Səttardır. Sənətkarın həyat və sənətinin coşqun çağları Tiflis şəhərində keçir. Onun haqqında günümüzə gəlib çatan məhdud məlumatlar dövri mətbuat səhifələrində, şair və yazıçıların əsərlərində yer alıb.

Mənbələrdə xanəndənin valideynləri, təvəllüdü və vəfatı barədə səhih məlumat demək olar ki, yoxdur. Aleksandr Barnov "Köhnə Tiflisin musiqiçiləri" kitabında qeyd edir ki, Səttar təxminən XIX əsrin 20-ci illərində Cənubi Azərbaycanın Ərdəbil şəhərində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərib. El şənliklərində muğam və xalq mahnılarını böyük həvəslə və diqqətlə dinləyib. Bir müddət sonra Şərqin görkəmli şairlərindən Sədi Şirazi, Hafiz Şirazi, Məhəmməd Füzuli və başqalarının qəzəlləri üstündə muğam və təsnifləri ustalıqla ifa edib. Məlahətli səsi və mahir ifası ilə xalqın sevimlisinə çevrilib.

Bir müddət sonra onun İslam ehkamlarına qarşı çıxdığı iddia olunaraq Ərdəbil ruhaniləri tərəfindən təqib edilir. Bütün bunlara tab gətirə bilməyən Səttar doğma şəhərini tərk etməyə məcbur olur. Əvvəlcə Təbrizə, daha sonra Tehrana gedir. Bir neçə il İran şahı Məhəmməd Mirzənin sarayında xanəndəlik edir. O burada bir neçə il fəaliyyət göstərdikdən sonra səyahət üçün şahdan icazə istəyir. 1844-cü ildə Naxçıvan şəhərinə gəlir. Hörmətlə qarşılanan sənətkarın şərəfinə geniş məclislər qurulur. Məclislərin birində Azərbaycan musiqisini sevən və onu yüksək qiymətləndirən məşhur gürcü şairi Nikolaz Barataşvili (1817-1845) ilə tanış olur. Bu tanışlıqdan məmnun qalan şair rəfiqəsi Maiko Orbelianiyə yazdığı məktubda Səttarın sənətkarlığından da bəhs edir. Onun son dərəcə gözəl səsi olduğunu bildirir.

Araşdırmalarda qeyd edilir ki, N.Barataşvilinin evində təşkil edilən poeziya və musiqi gecələrində Səttar böyük məharətlə öz sənətini nümayiş etdirir. Məclislərdə iştirak edən Naxçıvan xanının qızı Qönçə bəyim bir neçə şeirini oxuyur. Onun şeirlərini N.Barataşvili gürcü dilinə çevirir. Səttar isə həmin bədii nümunələri Azərbaycan və gürcü dillərində oxuyur.

Səttar uzun müddət Naxçıvanda qalır. Ancaq Tiflisin musiqi həyatı onu çox maraqlandırır. Bir müddətdən sonra İrəvana, 1845-ci ildə isə Tiflisə gedən xanəndə bənzərsiz səsi ilə musiqisevərlərin rəğbətini qazanır. Hətta Tiflisdə yaşayan



rus və italyan musiqiçiləri Səttarı öz konsert-tamaşalarına dəvət edirlər. O, 1847-ci ildə italyan skripkaçısı, Tiflis teatr orkestrinin dirijoru Malaqollinin konsertində muğam ifa edərək dinləyicilərin qəlbini oxşayır. Tiflisdə çıxan "Qafqaz" qəzeti onun ifaçılığını yüksək qiymətləndirir. Musiqişünas L.Yapşevski yazır: "Konsertin sonunda cənab Malaqolli tərəfindən dəvət olunan müğənni Səttar bəy öz dəstəsinin müşayiəti ilə oxudu. Biz avropalılarda bu musiqi böyük maraq oyatdı. Gələcəkdə mən bu musiqi haqqında ətraflı danışacağam".

Mənbələrdə xanəndənin 1853-cü ildə Tiflisdə təşkil olunan beynəlmiləl konsertdə məşhur skripkaçı Millerlə çıxış etdiyi də bildirilir.

Səttar rəngarəng repertuarında geniş yer alan "Zəminxarə", "Dəşti", "Rahab", "Şüştər", "Bayatı-İsfahan", "Rast", "Çahargah" muğamlarını böyük ustalıqla ifa edib. Çox vaxt Azərbaycan nəğmələrini rus, ləzgi və gürcü dillərində də səsləndirib. Tiflisdə xalq şənlikləri ilə yanaşı, Qafqaz canişininin iqamətgahında verilən rəsmi ziyafətlərə də dəvət olunub. Səttarın sənətkarlığı daha geniş miqyasda tanınıb, İran, Osmanlı və Rusiya hökumətləri onu orden və medallarla təltif edib.

Görkəmli şair Seyid Əzim Şirvani də bir müxəmməsində onun ifasından aldığı zövqü dilə gətirib. Məşhur fransız yazıçısı Jül Vern "Arxipelaq alovlanır" əsərində Səttarın səsini yüksək qiymətləndirib. Rus generalı M.Olşevski isə "Tiflis gündəliyi"ndə Səttardan bəhs edib, onun bütün Gürcüstanı heyran qoyan məşhur müğənni olduğunu göstərib.

Onu da qeyd edək ki, xanəndənin obrazı "Səbuhi" (1941) bədii filmində yer alıb.

Tiflisdə vəfat edən sənətkar şəhərin müsəlman qəbiristanlığında dəfn olunub.

**Savalan Fərəcov**

## İsmət İsmayılov – 100

Bu il təsviri sənətin müxtəlif sahələrində maraqlı əsərlər ərsəyə gətirmiş Əməkdar rəssam, SSRİ Rəssamlar İttifaqının üzvü İsmət İsmayılovun anadan olmasının 100 illiyidir. O, qrafika, rəngkarlığın, xüsusilə, portret janrında, habelə tətbiqi sənətin parçaların bədii tərtibatı, ağac üzərində bədii oyma və nəqqaşlıq istiqamətləri üzrə fəaliyyət göstərib.



İsmət Şirəli oğlu İsmayılov 14 iyul 1924-cü il tarixdə Nuxa (Şəki) qəzasının Qudula kəndində anadan olub. Kiçik yaşlarından rəsm sənətinə meyil göstərib. Orta məktəb dövründə rəsmlər çəkib, bu fəaliyyəti ilə pedaqoji kollektivin diqqətini cəlb edib. İsmət 1943-cü ilin avqust ayında Nuxa şəhər 7 nömrəli orta məktəbin 9-cu sinfində oxuyarkən hərbi xidmətə çağırılır. Müharibənin qızğın çağında o, hərbi qərargahda rəssam olaraq çalışır, sovet əsgərlərini qələbəyə çağıran plakatlar, alman faşistlərini ifşa edən karikaturalar, döyüş yoldaşlarının və komandirlərin portretlərini çəkməklə məşğul olur və bunların bir qismi ordu qəzetlərində dərc edilir. 1945-ci ildə müharibə başa çatsa da İsmət ordudan yalnız 1947-ci ildə tərxis edilir. Bu zaman o, baş serjant rütbəsində idi və sinəsini "Döyüş xidmətlərinə görə" və "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində Qələbəyə görə" medalları bəzəyirdi.

İ.İsmayılov 1948–1952-ci illərdə Bakıda İnşaat Texnikumunda təhsil alır, 1959-cu ilədək Ağdaş rayonunda tikintidə iş icraçısı, Şəkidə mühəndis, daha sonra Kommunal təsərrüfatı idarəsində şöbə müdiri, Ticarət idarəsinin soyuducu qurğusunda rəis vəzifələrində işləyir. O, 1959–1965-ci illərdə Şəki Xan sarayının bərpasında iş icraçısı, 1965-ci ildən isə Nuxa İpək Kombinatının parça tərtibatı üzrə rəssamı olub.

1973-cü ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul edilən İ.İsmayılov 1988-ci ildə "Əməkdar rəssam" fəxri adına layiq görülüb. 7 dekabr 2010-cu il tarixində, 86 yaşında Şəkidə vəfat edib. Şəkidəki Məhəmməd əfəndi qəbiristanlığında dəfn olunub.

# Şəkidə bir rəssam vardı...

Ötən əsrin 60-cı illərinin ortalarından başlamaqla Şəki İpək Kombinatında istehsal edilmiş məşhur "Krepdeşen", "Qış günü", "Paplin", "Şəkili qız" və s. adlı parça növləri İ.İsmayılovun çəkdiyi süjetlər əsasında ərsəyə gətirilib. Bununla yanaşı, rəssam akvarel və yağlı boya ilə də müxtəlif mövzularda tablolar yaradıb. Onların sırasında "Hacı Çələbi Nadir şahın hüzurunda" adlı 51x72 sm ölçülərində iki tablo xüsusi yer tutur. Birinci əsər kağız üzərində qrafika, ikincisi isə yağlı boya ilə kətan üzərində işlənmiş rəngkarlıq əsəridir. Birinci əsər 1981-ci ildə Şəki Tarix-Diyarşünaslıq Muzeyinin fonduna daxil edilsə də, ikincini rəssam ömrünün sonunadək özündə saxlayıb. Yalnız vəfat etdikdən sonra həmin əsər Şəkidəki "Minali Butik" hotelinin rəhbərliyi tərəfindən rəssamın ailəsindən satın alınıb. Bu əsər hazırda hotelin foyesinin görkəmli yerində nümayiş olunur.



Bu günlərdə rəssamın həyat və yaradıcılığı ilə bağlı araşdırma apardıq. Ailəsi ilə əlaqə saxlayıb, əlavə məlumatlar topladıq. Rəssamın bəzi əsərləri, ən əsası isə "Şəki fəhləsi" qəzetinin 15 iyul 1975-ci il tarixli sayında onun haqqında Telman Həmidlinin imzası ilə dərc edilmiş "İpək parçaları bəzəyir" adlı məqalənin və onun haqqında digər məqalələrin surətlərini, həmçinin fotoşəkilləri



əldə etdik. Nəticədə rəssamın təvəllüdü və vəfat tarixiləri, ona aid digər bioqrafik məlumatları dəqiqləşdirmək mümkün oldu.

**Aydın Məmmədov**
**M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin əməkdaşı**

## Xatirə təqvimi — 30 sentyabr – 3 oktyabr

### Azərbaycan

**30 sentyabr 1891** – Xalq artisti Aleksey Lvoviç Qripiç (1891–1983) anadan olub. Azərbaycan Dövlət Rus Dram Teatrında (1936–1948) quruluşçu rejissor və baş rejissor işləyib.

**30 sentyabr 1920** – Əməkdar incəsənət xadimi, rejissor Lətif Bəşir oğlu Səfərov (1920 – 9.12.1963) Şuşada doğulub. "Bəxtiyar", "Qızmar günəş altında", "Leyli və Məcnun" filmlərinə quruluş verib. Azərbaycan Kinematoqrafçılar İttifaqının ilk sədri olub.

**30 sentyabr 1933** – Bəstəkar, truba ifaçısı, dirijor, pedaqoq Əziz Əkbər oğlu Əzizli (1933–2005) Bakıda anadan olub.

**30 sentyabr 1945** – Şair Vaqif İbrahim (Vaqif Əliyar oğlu İbrahimov; 1945–1983) Şəkidə doğulub. Kitabları: "Bu torpaqda doğulanlar", "Dünyanın keşiyində" və s.

**30 sentyabr 1950** – Bəstəkar, Əməkdar incəsənət xadimi Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyli (17.4.1884 – 1950) vəfat edib. "Aşıq Qərib" operası, "Əlli yaşında cavan" musiqili komediyasının müəllifidir.

**30 sentyabr 1988** – Əməkdar incəsənət xadimi, rəssam Əbdülxalıq (Əbdülxalıq Əbdüləli oğlu Rzaquliyev; 5.5.1920 – 1988) vəfat edib.

**30 sentyabr 1991** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (23.10.1953 – 1991) dünyasını dəyişib.

**30 sentyabr 2021** – Tanınmış müğənni Səyyad Əşrəf oğlu Əlizadə (6.8.1958 – 2021) vəfat edib.

**30 sentyabr 2021**– Azərbaycan və Özbəkistanın Əməkdar artisti Kövkəb Əliyeva (1935–2021) vəfat edib.

**1 oktyabr 1897** – Görkəmli şairə Xurşidbanu Natəvan (1832–1897) vəfat edib. Sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızıdır. Şuşada "Məclisi-üns" ədəbi birliyinin yaradıcısı olub. Ağdamın "İmarət" qəbiristanında dəfn edilib.

**1 oktyabr 1932** – Mədəniyyət xadimi Əkbər Fərzəli oğlu Fərzəliyev (1932–1999) Qusar rayonunda anadan olub. "Qızmar günəş altında", "Koroğlu" və s. filmlərdə çəkilib. 1963-cü ildə Qusarda Ləzgi Xalq teatrını təşkil edib.

**1 oktyabr 1949** – Əməkdar artist Almaz Əhməd qızı Mustafayeva (1949 – 26.12.2020) Ağdam şəhərində doğulub. Gənc Tamaşaçılar Teatrının aktrisası olub, filmlərdə çəkilib.

**1 oktyabr 1965** – Qəzəlxan şair, Əməkdar incəsənət xadimi Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov; 18.2.1895 – 1965) vəfat edib. Nizami, Xaqani, Nəvai və b. şairlərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

**2 oktyabr 1913** – Əməkdar incəsənət xadimi, dirijor Çingiz Zülfüqar oğlu Hacıbəyov (1913 – 18.1.1971) anadan olub.

**2 oktyabr 1923** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 1923 – 12.9.2004) anadan olub. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, Hüseyn Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**2 oktyabr 1935** – Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Səyavuş İmran oğlu Məmmədzadə (1935 – 3.9.2022) anadan olub. Azərbaycan ədəbiyyatından rus dilinə, rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə tərcümələr edib.

**2 oktyabr 1962** – Əməkdar artist Elşən Şıxəli oğlu Şirəliyev (1962 – 20.12.2021) Bakıda doğulub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub.

**2 oktyabr 1969** – Musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Seyran Əmir oğlu Qafarov (2.10.1969 – 5.11.2018) Bakıda anadan olub.

**2 oktyabr 1981** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Həsənağa Dərya oğlu Salayev (5.12.1921 – 1981) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, "Görüş", "Onu bağışlamaq olarmı?", "Aygün" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**2 oktyabr 2023** – Əməkdar mədəniyyət işçisi Fərhad Ağa Səlim oğlu Babayev (5.1.1948 – 2023) vəfat edib. Heydər Əliyev Sarayının direktoru olub.

**3 oktyabr 1875** – Yazıçı-dramaturq Süleyman Sani Rzaqulu bəy oğlu Axundov (1875–1939) Şuşada anadan olub. Yazıçının "Qorxulu nağıllar" toplusu Azərbaycan uşaq ədəbiyyatının klassikası sayılır. "Laçın yuvası", "Eşq və intiqam", "Tamahkar" və s. pyeslərin müəllifidir.

**3 oktyabr 1887** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (1887 – 4.11.1967) anadan olub. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb. Bu rolu Musiqili Komediya Teatrında 600 dəfə ifa edib. "Qara daşlar", "Ögey ana" və s. filmlərdə çəkilib.

**3 oktyabr 1996** – Xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyev (26.5.1914 – 1996) vəfat edib. "Söyüdlü arx", "Körpüsalanlar", "Geriyə baxma, qoca" və s. romanların, Azərbaycan dramaturgiyasında yeni mərhələ təşkil edən pyeslərin müəllifidir.

### Dünya

**30 sentyabr 1917** – Məşhur teatr rejissoru, Rusiyanın Xalq artisti, pedaqoq Yuri Lyubimov (1917–2014) anadan olub. Uzun illər Taqanka Teatrının rəhbəri olub.

**1 oktyabr 1912** – Rus tarixçisi, filosof, şair Lev Qumilyov (1912–1992) anadan olub. Qədim türk tarixinə dair əsərlərin müəllifidir: "Böyük çöl", "Hunlar Asiya və Avropada".

**1 oktyabr 1947** – Türkiyənin tanınmış teatr və kino aktyoru, televiziya aparıcısı Kənan İşıq (Yusuf Kenan Işık; 1947–2024) anadan olub. 2014-cü ildə keçirdiyi qəzadan sonra 10 il komada qalıb.

**2 oktyabr 1832** – İngilis etnoqrafı və yazıçısı Eduard Bernett Teylor (Edward Burnett Tylor; 1832–1917) anadan olub.

**2 oktyabr 1869** – Hindistanda milli-azadlıq hərəkatının ideoloqu, filosof Mahatma Qandi (Mohandas Karamchand Gandhi; 1869–1948) anadan olub.

**3 oktyabr 1895** – Rus şairi Sergey Yesenin (1895 – 27.12.1925) anadan olub. 1924–1925-ci illərdə Bakıda yaşayıb. Burada 40-dək şeirini mətbuatda dərc etdirib. Mərdəkanda şairin xatirə muzeyi var.

**3 oktyabr 1897** – Fransız şairi, ədəbiyyatda sürrealizmin banilərindən Lui Araqon (Alouis Aragon – Louis-Marie Andrieux; 1897–1982) anadan olub.

**3 oktyabr 1919** – Litva şairi Eduardas Mejelaytis (Eduardas Miezelaitis; 1919–1997) anadan olub.

**Hazırladı: V.Orxan**

# İspaniyalı dirijor Üzeyir Hacıbəyli festivalının konsertini idarə edib



Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının son konsertlərindən biri sentyabrın 26-da Beynəlxalq Muğam Mərkəzində keçirilib.

"Cadenza Contemporary Orchestra" orkestrinin (bədii rəhbər Türkər Qasımzadə) konsertinə festivalın qonaqlarından ispaniyalı maestro Mersedes Dias Qarsia (Mercedes Diaz Garcia) dirijorluq edib.

Proqramda amerikalı bəstəkarlar Corc Krambın (George Crumb) "Gecə musiqisi", Con Keycin (John Milton Cage) "Oyuncaq fortepiano üçün süita", fransız bəstəkar Pyer Bulezin (Pierre Louis Boulez) "Memorial" və Azərbaycanın Xalq artisti Azər Dadaşovun "Violonçel və kamera orkestri üçün konsert" əsərləri səslənib.

Konsertdə solist qismində Fatimə Nəsirli (skripka), Humay Qasımzadə (fortepiano), Afaq Qarayeva (oyuncaq fortepiano), Kamran Talıblı (fleyta), Əyyub Əliyev (violonçel), konsertmeyster Samir Əsədov çıxış ediblər.

İspaniyalı xanım dirijor Mersedes Dias Qarsia konsertdən sonra Bakıya səfəri və azərbaycanlı həmkarları ilə işbirliyi təəssüratından bəhs edib: "Bu, Azərbaycana ilk səfərimdir. Burada olmaqdan çox şadam. Birlikdə çıxış etdiyim musiqiçilərdən bəzilərini artıq tanıyıram. Bu, mənim azərbaycanlı musiqiçilərlə ilk iş təcrübəm deyil. Azər Dadaşovun yaradıcılığı ilə tanış oldum və çox təsirləndim. Mən həm də Azərbaycan xalq musiqisini daha yaxından tanımaq istərdim. Bilirəm ki, bura ənənəvi musiqinin – muğamın mərkəzidir. Mənə burada nümayiş etdirilən ənənəvi musiqi alətləri haqqında məlumat verdilər. Bundan əlavə, parkda səslənən ənənəvi musiqini eşitdim. Musiqinizi daha ətraflı öyrənmək üçün mütləq yenidən Azərbaycana qayıtmalıyam. Bakını da gəzmək istəyirəm, çünki onun zəngin tarixə malik olduğunu bilirəm. Burada insanlar səmimi və xeyirxahdır...".

Mersedes Dias Qarsia dünyada tanınan dirijordur. O, Missuri Simfonik Orkestri (ABŞ), Eliopolis Simfonik Orkestri (Braziliya), Vindzor Simfonik Orkestri (Kanada) kimi kollektivlərlə çıxış edib. Onun dirijorluğu ilə Almaniyada – Hamburqdakı Elbphilarmonie və Bremendəki Sendessaal kimi məkanlarda keçirilən konsertlər "Deutschlandfunk Kultur" radiokanalında yayımlanıb.

"Cadenza Contemporary Orchestra" orkestri 2021-ci ildən bəstəkar Türkər Qasımzadənin rəhbərliyi ilə fəaliyyət göstərir. T.Qasımzadə Bakı Musiqi Akademiyasının Bəstəkarlıq fakültəsini bitirdikdən sonra Nyu-Yorkda Manhettan Musiqi Məktəbində magistratura təhsili alıb. Hazırda Qarabağ Universiteti (Xankəndi) İncəsənət fakültəsinin dekanıdır.

# Azərbaycanın turizm imkanları dünya sərgilərində

Tokio şəhərində 28-29 sentyabr tarixlərində keçirilən "Yaponiya Expo Turizm" (Tourism Expo Japan 2024) sərgisində Azərbaycanın da turizm imkanları tanıdılıb.

Dövlət Turizm Agentliyindən (DTA) bildirilib ki, sərgi iştirakçılarına ölkəmizin mədəni, təbiət, sağlamlıq, işgüzar turizm imkanları, eləcə də şərabçılıq ənənəsi və qastronomiyası haqqında məlumat verilib.







Azərbaycan Turizm Bürosunun (ATB) nümayəndələri və yerli tərəfdaşların iştirakı ilə Yaponiya Səyahət Agentlikləri Assosiasiyası və Yaponiyanın tanınmış turizm agentlikləri arasında görüşlər təşkil edilib, əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Sərgidəki milli stendimizi Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə də ziyarət edib.

***

ATB-nin iştirakı ilə sentyabrın 26-27-də Moskvada keçirilən "Luxury Travel Mart (LTM) Moscow Autumn" tədbirində ölkəmizin lüks turizm potensialı tanıdılıb. Rusiyanın lüks turizm üzrə ixtisaslaşmış turoperator və agentlikləri ilə görüşlərdə Azərbaycanın turizm potensialı, o cümlədən xizək kurortları, Bakı şəhər turları, sağlamlıq və termal istirahət mərkəzləri, işgüzar və lüks turizm məhsulları haqqında məlumat verilib.

Azərbaycanın qastroturizm imkanları isə DTA-nın dəstəyi ilə sentyabrın 26-dan 30-dək İtaliyanın Turin şəhərində keçirilən "Terra Madre Salone del Gusto 2024" qida festivalında təbliğ edilib. DTA və agentliyin tabeliyindəki Azərbaycan Milli Kulinariya Mərkəzinin nümayəndələrinin iştirakı ilə milli stenddə Böyük Qafqaz dağları üzrə "Slow Food" səyahət turizm marşrutu, qastronomik turizmdə "Slow Food" turizm modelinin tətbiqi haqqında məlumat verilib.

Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində sentyabrın 25-26-da keçirilən "Kingdom Business & Luxury Travel Congress" tədbirində Azərbaycanın işgüzar turizm potensialı tanıdılıb. Konqresdə ölkəmizi ATB "gümüş tərəfdaş" statusunda təmsil edib.

# Türkiyə Mədəniyyət Yolu Festivalında üç dayanacaq qaldı

## 2025-ci ildə festival 20 şəhəri əhatə edəcək

Altı aydır davam edən Türkiyə Mədəniyyət Yolu Festivalının 13-cü dayanacağı İstanbul şəhəridir. Festivalın bu mərhələsi 28 sentyabr – 6 oktyabr tarixlərini əhatə edir.

Atatürk Mədəniyyət Mərkəzində (AKM) sənət və siyasət dünyasından bir çox ünlünün iştirakı ilə keçirilən açılış mərasimində Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy çıxış edib.

Mədəniyyət Yolu Festivalını "mədəniyyət və sənətlə inteqrasiya olunmuş turizm" vizyonu ilə həyata keçirdiklərini ifadə edən Ersoy bu çərçivədə hər sahədə sənətə və sənətçiyə də dəstək olduqlarını deyib. "Festivalımız mədəniyyət və tariximizin, sivilizasiya irsimizin və gələcəyə miras qoymaq üçün istehsal və inşa etdiyimiz müasir əsərlərin milli və beynəlxalq səviyyədə nümayiş olunduğu bir səhnədir. Bu səhnədə Göbeklitəpə (12 min illik tarixi olan arxeoloji abidə – red.) də var, Atatürk Mədəniyyət Mərkəzi də... Musiqimiz, qastronomiyamız və rəqəmsal incəsənətimiz də bu gün festivalımızda öz yerini tapır", – deyə nazir vurğulayıb.



İstanbul Mədəniyyət Yolu Festivalı çərçivəsində 9 gün ərzində 110-dan çox məkanda konsertlərdən sərgilərə, sənət atelyelərində görüşlərdən seminarlara və zəngin mətbəx nümunələrinin təqdimatına qədər 500-dən çox tədbirin keçiriləcəyini deyən Ersoy gələn il festival arenasının daha geniş olacağını da diqqətə çatdırıb: "2025-ci ildə Mədəniyyət Yolu Festivalının marşrutlarına Malatya, Manisa, Mardin və Kayseri də daxil edilərək 20 şəhərdə festival həyəcanımız yaşanacaq".

Xatırladaq ki, Mədəniyyət Yolu Festivalının bundan öncəki iki dayanacağı Ankara və Konya olub. Hər iki şəhərdə eyni vaxtda (21–29 sentyabr) keçirilən festivallar konsertlər, teatr tamaşaları, film nümayişləri, sərgi və sənət söhbətləri ilə müşayiət olunub.

Ankarada Anadolu Sivilizasiyaları Muzeyində media sənətçisi Refik Anadolun "Yerin xəyalları: Anadolu" adlı layihəsi ilə başlayan festival proqramı şəhərin müxtəlif yerlərində 100-dən çox məkanda gerçəkləşib.



Festivalın Konya mərhələsi isə bu dəfə də ənənəvi Beynəlxalq Konya Mistik Musiqi Festivalı ilə üst-üstə düşüb. 21-ci dəfə keçirilən musiqi festivalına müxtəlif ölkələrdən sənətçilər qatılıb. Son gün səhnəyə çıxan bosniyalı sənətçi Damir İmamoviç tamaşaçılara unudulmaz musiqi ziyafəti təqdim edib.

Qeyd edək ki, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dördüncü dəfə təşkil edilən festival bu il 16 şəhəri əhatə edir. Aprel ayında Adanada start götürən festivalın hər mərhələsi doqquz gün sürür.

"Mədəniyyət Yolu"nun 2024-cü il proqramında son üç marşrut qalıb. 12–20 oktyabrda Diyarbəkir, 26 oktyabr – 3 noyabrda İzmir, 2–10 noyabrda isə Antalya festivala ev sahibliyi edəcək.

# AZAL haqqında videofilm Kannda mükafat qazanıb

Bakı Media Mərkəzinin istehsal etdiyi, rejissoru Fuad Quliyev olan "AZAL təhlükəsizlik qaydaları videosu" turizm filmi "Kann Korporativ Media və TV Mükafatları"nın ("Cannes Corporate Media and TV Awards") final mərhələsində qaliblər sırasında yer alıb.




Film "Turizm xidmətləri" kateqoriyasında "Qızıl delfin" mükafatına ("Golden Dolphin Award") layiq görülüb.

"Cannes Corporate Media and TV Awards" dünyanın ən yaxşı korporativ filmləri, turizm və sənədli filmlərin yarışdığı müsabiqədir. Bu il müsabiqəyə 40-dan çox ölkədən audiovizual əsərlər təqdim olunub.

"Azərbaycan Hava Yolları" QSC-nin sifarişi ilə çəkilən videofilm şirkətin uçuş təhlükəsizliyi təlimatına yaradıcı yanaşmanı nümayiş etdirir. Filmdə təhlükəsizlik və uçuş təlimatları Azərbaycanın füsunkar təbiəti və turizmi fonunda nümayiş etdirilir. Film bundan əvvəl Yaponiya və ABŞ-da festivallarda mükafat qazanıb.

Bakı Media Mərkəzinin mütəxəssisi Fuad Quliyev çoxsaylı turizm və reklam filmlərinin rejissorudur. Rejissorun "Qarabağ FK. 30 mövsüm səfərdə" sənədli filmi də bu il tamaşaçılara təqdim edilib.

# Britaniya Muzeyində "İpək Yolları"

Londondakı Britaniya Muzeyində İpək Yoluna həsr olunmuş sərgi təşkil edilib. Muzeyin saytında yer alan məlumata görə, "İpək Yolları" ("Silk Roads") sərgisi 29 milli və beynəlxalq tərəfdaşla əməkdaşlıq çərçivəsində ərsəyə gəlib və tarixi İpək Yolunun hər yerindən olan eksponatları görmək üçün unikal şansdır.



Bizans zərgərlik məmulatları və ən qədim şahmat fiqurları da daxil olmaqla bir sıra artefaktları nümayiş etdirən sərgi eramızın təqribən 500-1000-ci illərinə diqqət yetirən vizual bir şoudur.

"Bu sərgi İpək Yolu ilə bağlı bəzi insanların gözlədiyindən tamamilə fərqli bir baxış təqdim edir... Şərq və Qərb arasında vahid ticarət yolu əvəzinə, biz İpək yollarını cəm şəkildə... Asiya, Afrika və Avropadakı bütün icmaları birləşdirən kəsişən şəbəkələr silsiləsi kimi göstəririk. Biz göstəririk ki, təkcə ipək və ədviyyatlar deyil, həm də insanlar, əşyalar və ideyalar bəzən nəinki quruda, dəniz və çay vasitəsilə böyük məsafələri qət edib. Belə mübadilələr bütün kontekstlərdə baş verib", – deyə sərginin kuratorlarından Syu Brunning bildirib.

Sərgidə Özbəkistan və Tacikistanın Böyük Britaniyada indiyə qədər nümayiş etdirilməmiş eksponatları xüsusi diqqət çəkir, bu, həm də qitə miqyasında Mərkəzi Asiyanın əhəmiyyətini vurğulayır.

Britaniya Muzeyindəki "İpək Yolları" sərgisi 2024-cü il sentyabrın 26-dan 2025-ci il fevralın 23-dək ziyarət üçün açıqdır.

# Pivə həvəskarları ilə kommunistlər eyni saydadır?

## Avstriyada seçkilərin maraqlı nəticələri

Avstriyada sentyabrın 29-da keçirilən parlament seçkiləri ölkə siyasətinin ciddi şəkildə sağa əyildiyini göstərir.

Səsvermənin nəticələrinə görə, millətçi təmayüllü Avstriya Azadlıq Partiyası (Freiheitliche Partei Österreich – FPÖ) 29,2 faiz səslə birinci olub. Sağçı-radikal düşərgəni təmsil edən partiya tarixində ən yüksək nəticəyə nail olub və ötən seçkilərlə müqayisədə reytingini 13 faiz artırıb.

Qeyd edək ki, FPÖ indiyədək üç dəfə hökumət koalisiyasında yer alıb, amma hər üçündə hökumət kabinetində kiçik ortaq kimi təmsil olunub.

Hazırda hökumətdə təmsil olunan mərkəzçi-mühafizəkar Avstriya Xalq Partiyası isə 26,5 faizlə ikinci yerdə qərarlaşıb. Sosial-demokratlar da partiyanın tarixində ən uğursuz seçki göstəricisi (21 faiz) ilə üçüncü olublar. Bundan əlavə, liberal demokratlar (9 faiz) və "yaşıllar" (8 faiz) da yeni parlamentdə yer qazanıblar.

Maraqlı nüanslardan biri də Avstriya kommunistləri ilə Pivə Partiyasının (Die Bierpartei) eyni reytingə (hər ikisi 2 faiz) malik olmasıdır. Kommunistlərdən fərqli olaraq, bu, ikinci dəfə parlament seçkilərində iştirak edən "pivəçilər" üçün mühüm nəticədir. 2014-cü ildə rok musiqiçi Dominik Vlaznı tərəfindən təsis edilən təşkilat özünü "satirik siyasi partiya" kimi tanıdır. 2019-cu il seçkilərində partiya cəmi 0,6 faiz səs toplamışdı.

Parlament seçkilərində 6,3 milyon səsvermə hüququna malik Avstriya vətəndaşlarının 75,6 faizi iştirak edib.

# Tarixdə bu gün

## Olaylar, faktlar (1 – 3 oktyabr)



### Xronoqraf

**1 oktyabr** Beynəlxalq Musiqi Günüdür (International Music Day). UNESCO yanında Beynəlxalq Musiqi Şurasının qərarı ilə 1975-ci ildən qeyd olunur.

**1 oktyabr** Beynəlxalq Ahıllar Günüdür. BMT Baş Assambleyasının 14 dekabr 1990-cı il tarixli qətnaməsinə əsasən təsis olunub.

**1 oktyabr** Azərbaycanda prokurorluq işçilərinin peşə bayramıdır. 1918-ci il oktyabrın 1-də Xalq Cümhuriyyətinin Nazirlər Şurası Bakı Dairə Məhkəməsi tərkibində prokurorluq orqanının yaradılması barədə qərar qəbul edib. Prokurorluq işçilərinin peşə bayramı günü Prezident Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə təsis olunub.

### 197 il əvvəl...



**1 oktyabr 1827-ci ildə** Rusiya qoşunları İranla müharibə (1826–1828) gedişində İrəvan qalasını ələ keçiriblər. General İvan Paskeviçin komandanlıq etdiyi qoşunlar bundan öncə (20 sentyabr) bölgədəki strateji məntəqə olan Sərdarabad qalasını işğal edəndən İrəvanın müdafiə imkanları zəifləmişdi. İrəvanın işğal olunmasında erməni əhalisi və Eçmiədzin kilsəsi ruslara hər cür kömək göstərmişdi.

### 97 il əvvəl...

**1 oktyabr 1927-ci ildə** SSRİ ilə İran arasında "Qarşılıqlı təminatlar və neytrallıq haqqında" saziş imzalanıb. Sazişdə iki ölkənin Xəzərdəki sərhədi də Astara (Azərbaycan) – Həsənqulu (Türkmənistan) xətti üzrə müəyyənləşib.

### 75 il əvvəl...

**1 oktyabr 1949-cu ildə** Çin Xalq Respublikasının yarandığı elan edilib. Çin kommunistlərinin lideri Mao Tszedun (Zedong, Tsetung) dövlətin rəhbəri olub. 1840-cı illərdə qismən Britaniya imperiyasının təsiri altına düşən Çində 1927-ci ildə Sun Yatsenin başçılığı ilə inqilab qələbə çalmışdı. Lakin bundan sonra hakimiyyətə gələn general Çan Kayşi diktatura rejimi qurdu və ölkəni mütəfiqi olduğu Yaponiyanın təsiri altına saldı. II Dünya müharibəsindən sonra Çində xalq inqilabı başlandı və ÇXR elan edildi.

### 66 il əvvəl...

**2 oktyabr 1958-ci ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Qvineya müstəqilliyini elan edib.

### 34 il əvvəl...



**3 oktyabr 1990-cı ildə** Qərbi və Şərqi Almaniya (ADR və AFR) birləşərək vahid dövlət olub. II Dünya müharibəsindən sonra SSRİ, ABŞ, Britaniya, Fransa arasında sektorlara bölünən Almaniya ərazisində 1949-cu ildə Almaniya Demokratik Respublikası (sovet sektoru) və Almaniya Federativ Respublikası (Qərb sektoru) yaranmışdı.

### 31 il əvvəl...

**3 oktyabr 1993-cü ildə** Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirilib. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. 1993-cü il iyunun 24-də Milli Məclis tərəfindən Əbülfəz Elçibəyin prezident səlahiyyətlərindən məhrum edilməsi və avqustun 29-da bununla bağlı referendum keçirilməsindən sonra növbədənkənar seçkilər elan edilmişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2272
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641